27 oktyabr 2023 №80 (2049) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın enerji potensialına güc qatacaq




Azərbaycan xarici investisiyalar üçün çox açıq ölkədir. Son 30 il ərzində bizim çoxmilyardlı investisiya portfoliomuz olub. Azərbaycana ümumi investisiyalar 300 milyard dollardan çox olub və bunun təqribən 200 milyard dolları qeyri-neft sektorunun payına düşür.

Azərbaycan Prezidenti İlham Əliyev bu barədə oktyabrın 26-da Qaradağ Günəş Elektrik Stansiyasının rəsmi açılış mərasimində çıxışı zamanı bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, hazırda bizim iqtisadi hədəfimiz qazıntı yanacağından asılılığımızı azaltmaq üçün iqtisadiyyatımızı şaxələndirməyi davam etdirməkdir.

davamı səh. 2-də

## TÜRKSOY Teatr Festivalı keçiriləcək

Oktyabrın 31-dən noyabrın 4-dək Şuşada və Bakıda I Beynəlxalq TÜRKSOY Teatr Festivalı keçiriləcək.

Festival Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi və Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi, Azərbaycan peşəkar milli teatrının yaradılmasının 150 və TÜRKSOY-un 30 illik yubileyləri münasibətilə gerçəkləşəcək.

Özbəkistandan Səmərqənd Musiqili Dram Teatrı, Qırğızıstandan Kasımalı Jantoşev adına İssıkgöl Musiqili Dram Teatrı, Qazaxıstandan Türküstan Musiqili Dram Teatrı, Türkiyədən İstanbul Dövlət Teatrı, həmçinin Məhdimqulu adına Türkmənistan Dövlət Musiqili Dram Teatrının festivala qatılması gözlənilir.

Tədbir çərçivəsində TÜRKSOY-a üzv ölkələrin dövlət teatrları rəhbərləri şurasının 9-cu toplantısının da keçirilməsi planlaşdırılır.




## Necə belə yüz illərə, Türkiyə!

Oktyabrın 29-u Türkiyə Cümhuriyyətinin quruluşunun 100-cü ildönümüdür. 1923-cü il oktyabrın 29-da türk xalqının Qazi Mustafa Kamalın öndərliyi ilə dörd ilə yaxın davam edən Qurtuluş savaşı və İstiqlal mücadiləsinin məntiqi yekunu olaraq qurulan Cümhuriyyətlə ümumtürk tarixində yeni səhifə yazıldı.

Ondan öncə Azərbaycanda 23 aylıq ömrü olmuş Cümhuriyyətin dövranın ağır yellərinə tab gətirməyərək süqutu, eləcə də Orta Asiyadakı türk xalqlarının milli dövlət qurmaq niyyətlərinin puça çıxmasından sonra Ankarada, Türkiyə Böyük Millət Məclisindən dünyaya bəyan edilən Türkiyə Cümhuriyyəti, əslində, bütün Türk dünyası üçün fəxarət ünvanı idi.

Bu gün də Türkiyə Cümhuriyyətinin 100 yaşı qardaş türk dövlətlərinin hər biri və o sırada ilk Azərbaycan üçün fərəh və qürur mənbəyidir. Çünki güclü Türkiyə güclü Azərbaycan, güclü Azərbaycan güclü Türkiyə deməkdir. Bunun ən bariz ifadəsi 2020-ci ilin 44 günlük Vətən müharibəsində Azərbaycan-Türkiyə birliyi oldu. 2021-ci ilin 15 iyununda imzalanan Şuşa Bəyannaməsi ilə bu birliyə tarixdə əbədi qalacaq möhür vuruldu.

Prezident İlham Əliyevin dediyi kimi: "Bu şanlı tarix bizim müştərək tariximizdir. Türkiyə-Azərbaycan birliyi bir daha zəfər çaldı. Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə Türkiyə-Azərbaycan birliyini görürük. Bu birlik əcdadlarımızdan qalan mirasdır, onların vəsiyyəti və zəmanəmizin tələbidir".

Prezident Rəcəb Tayyib Ərdoğanın da diləyi kimi: "Rəbbimiz birliyimizi, bərabərliyimizi əbədi etsin! Yaşasın Azərbaycan-Türkiyə qardaşlığı!".

Türkiyə Cümhuriyyətinin 100 yaşı mübarək! Necə belə yüz illərə...

# Bu gün bir-birimizə bağlanaraq sabahı dayanıqlı edirik

### İpək Yolunun iqtisadiyyatdan mədəniyyətədək fürsətləri bu dəfə Tbilisidə müzakirə olunur




26-27 oktyabr tarixlərində Gürcüstanın paytaxtı Tbilisidə IV İpək Yolu Forumu keçirilir. Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərliyi ilə nümayəndə heyəti forumda iştirak edir. Nümayəndə heyətində mədəniyyət naziri Adil Kərimli də təmsil olunur.

Mədəniyyət naziri Adil Kərimli oktyabrın 26-da Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yerləşdiyi binanın vəziyyəti ilə tanış olub. Teatrın yaradıcı heyəti, repertuarı, beynəlxalq festivallarda iştirakı barədə ətraflı məlumat verilib.

Daha sonra nazir Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyət Mərkəzinə, Nəriman Nərimanovun, Cəlil Məmmədquluzadənin ev-muzeylərinə baş çəkib, mədəniyyət ocaqlarının cari vəziyyəti və fəaliyyəti ilə tanış olub.

Tbilisi Milli Botanika Bağı ərazisindəki Heydər Əliyev adına xatirə bağı da ziyarət olunub. Sonda Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərinin dəfn olunduğu panteona baş çəkilib, soydaşlarımızın məzarları üzərinə gül dəstələri qoyulub.

Qeyd edək ki, oktyabrın 27-də nümayəndə heyəti Tbilisi şəhərindəki Heydər Əliyev adına parkı və Ümummilli liderin abidəsini ziyarət edəcək. 2004-cü ildə açılan və 2007-ci ildə yenidən qurulan parkda Heydər Əliyevin büstü (heykəltaraş, Xalq rəssamı Natiq Əliyev) qoyulub.

Oktyabrın 27-də Heydər Əliyev adına Tbilisi Dövlət Peşəkar Azərbaycan Dram Teatrının yeni binasının təməlatma mərasiminin keçirilməsi də nəzərdə tutulub.

***

Oktyabrın 26-da isə Tbilisi İpək Yolu Forumunun rəsmi açılış mərasimi olub. "Bu gün bir-birimizə bağlanaraq sabahı dayanıqlı edirik" (Connecting Today Resilient Tomorrow) devizi ilə keçirilən tədbirə 60-a yaxın ölkədən yüksəkvəzifəli rəsmi şəxslər, eləcə də özəl sektor təmsilçiləri qatılıb.

Forumun əvvəlində nümayiş etdirilən sənədli filmdə Azərbaycan, Gürcüstan və Türkiyənin birgə iştirakı ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin, eləcə də Qara dənizin dibindən keçəcək kabelin dünya ölkələri üçün də əhəmiyyətindən bəhs olunub.

davamı səh. 2-də

## Reza Deqatinin "Müasir Odisey"i

### Sərgidə Azərbaycan motivli fotolara xüsusi yer ayrılıb

Rumıniyanın Timişuara şəhərindəki "Galereya Mansard"da məşhur fotoqraf Reza Deqatinin "Müasir Odisey" (Une Odyssee contemporaine – müasir uzun, macəralı yollar) adlı sərgisi açılıb.

Sərgidə R.Deqatinin Azərbaycanın azad olunmuş ərazilərindən çəkilmiş fotolar da yer alıb. Dağıdılmış tarixi, mədəni və dini abidələr, eləcə də azərbaycanlı uşağın nar yarpağı üzərində donmuş qanını əks etdirən fotolar maraq doğurub. Fotoqraf hər bir şəkilin tarixçəsi haqqında ziyarətçilərə məlumat verib. Yaşıl yarpaq üzərindəki qan bağçada nar dərdiyi zaman ermənilərin atdığı raketin qurbanı olan uşağa aiddir. Cəsədin çəkilməz halda olduğunu görən fotoqraf uşağın nar yarpağı üzərinə səpələnmiş qanının fotosunu çəkib.

Sərgidə nümayiş olunan fotolar arasında həmçinin erməni işğalı zamanı viran edilmiş Ağdam şəhərinin də fotosu diqqəti cəlb edir. Bu foto düşmənin nə qədər vəhşi və zalım olduğunu əks etdirir.



Nümunələr arasında İçərişəhər üzərində yüksələn və UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş Şirvanşahlar sarayı kompleksinin fotoları da yer alıb.

Mühacir həyatı sürən, müharibələr və sülhün bərqərar olduğu məkanlarda uzun yollar qət etmiş fotoreportyor insanlarla təmas qurur və fotoları vasitəsilə müxtəlif emosiyaları, xatirələri əbədiləşdirir. 1979-cu ildən dünyada baş verən sarsıntıların danılmaz şahidi olan Reza Deqati "sülh reportyoru" olmağı seçib. O, münaqişədə olan cəmiyyətlərdə, meqapolislərin ətrafında insanların talelərini fotoları ilə vizual hekayəyə çevirir. Dəfələrlə beynəlxalq səviyyəli təltifə layiq görülüb, 30-dan çox kitab-albomun müəllifidir. "World Press Photo", Beynəlxalq Fotoqrafiya Mərkəzinin mükafatları ilə təltif olunub.

Reza Deqatinin Timişuaradakı "Müasir Odisey" sərgisi bir ay davam edəcək.

## Vətən müharibəsinin 30-cu günü idi...

### Qubadlının azad edilməsi Laçın və Şuşaya doğru zəfər yürüşünə daha bir zəmin oldu

Bir aya yaxındır ki, İkinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir. Biz döyüş meydanında tarixi ədaləti bərpa edirik. Çünki Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Əsrlər boyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurub.




Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev oktyabrın 26-da xalqa müraciətə bu sözlərlə başlayıb. Dövlət başçısının xalqa növbəti tarixi müraciəti 27 il əvvəl Ermənistanın işğal etdiyi daha bir rayon mərkəzinin – Qubadlı şəhərinin müzəffər Azərbaycan Ordusu tərəfindən azad olunması ilə bağlı idi.

Vətən müharibəsinin 30-cu günü idi. Artıq işğalçının beli qırılmışdı. Qubadlının azad edilməsi müzəffər Silahlı Qüvvələrimizin Laçın və Şuşa istiqamətlərində irəliləməsi üçün də mühüm zəmin idi.

Səhəri gün isə televiziya ilə xalqa müraciət edən Ali Baş Komandan Qubadlı şəhərinin, eləcə də Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin, Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndlərinin işğaldan azad olunduğunu bildirdi. Bu, Vətən müharibəsi gedişində dövlət başçısının xalqa qalibiyyət müjdəli beşinci müraciəti idi.

Qeyd edək ki, Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixdə imzaladığı sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis edilib. Sərəncamla 25 oktyabr Qubadlı Şəhəri Günü kimi təqvimimizə daxil olub...

## 80 yaşlı Nağılbaz...



Arif Hüseynov. O, milli təsviri sənətimizdə öz pozitivliyi, həyata işıqlı baxışı ilə seçilənlər sırasındadır. Çoxşaxəli yaradıcılığı həmişə diqqət mərkəzində olub. İstər dəzgah qrafikasında, istərsə də kitab illüstrasiyası sahəsində məhsuldar çalışaraq özünü Azərbaycan təsviri sənətində istedadlı qrafika ustası kimi tanıdıb. Daim axtarışdadır, folklora, adət-ənənəyə daha çox bağlıdır. Ötən əsrin 70-ci illərindən başlayaraq əsərləri dəfələrlə Bakıda, eləcə də bir sıra ölkələrin sərgi salonlarında tamaşaçıların böyük marağı ilə qarşılanıb.

Oktyabrın 30-da Xalq rəssamı Arif Hüseynovun 80 yaşı tamam olur. Əsərləri ilə tanış olan hər kəs onu nağıllar aləminin sakini hesab edə bilər. Elə özü də bu fikirdədir. "Həyatımı kitaba bənzətsək, onu belə təsvir edərdim: uşaq nağılları, klassik ədəbiyyat, müasir ədəbiyyat və sonra yenə nağıllar" deyir.

O özünü bu gün də 80 yaşında nağılbaz hesab edir. Amma yubileyini nağıllardakı kimi 40 gün, 40 gecə deyil, il ərzində silsilə tədbir və sərgilərlə qeyd edib.

davamı səh. 6-da

İfa etdiyi muğam və xalq mahnılarında yaşayır



səh. 3

"Tarix" animasiya filmi Portuqaliyada beynəlxalq festivalda ölkəmizi təmsil edəcək

səh. 2



Musiqili Teatrda "Leyli və Məcnun"un premyerası

səh. 5

# Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın enerji potensialına güc qatacaq




*əvvəli səh. 1-də*

"Eyni zamanda biz başa düşürük ki, bizim neft və qazımıza hələ uzun illər ərzində beynəlxalq bazarda tələbat olacaq. Bu məqsədlə çoxsaylı neft və qaz kəmərləri sistemi istismara verilib və indi biz neft və qazı müxtəlif istiqamətlərə ixrac edirik", – deyə İlham Əliyev əlavə edib.

Prezident vurğulayıb ki, planlarımız enerji dəhlizini, Xəzər-Avropa İttifaqı enerji dəhlizini yaratmaq üçün tərəfdaşlarımızla fəal işləməkdən ibarətdir: "Ötən ilin dekabrında müvafiq müqavilə imzalanıb. Biz artıq fəaliyyətimizə başlamışıq, rəhbər komitə bir neçə dəfə toplanıb. Bir neçə aydan sonra bizim yeni enerji təhlükəsizliyi layihəsinin – Yaşıl Enerji Dəhlizinin, inteqrasiya edilmiş ötürücü, istehsal və istehlak müəssisələrinin, o cümlədən Qara dənizin dibindən keçəcək elektrik kabelinin tam texniki-iqtisadi əsaslandırması hazır olacaq".

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, 4 qiqavat gücündə bərpaolunan enerji mənbələri üçün texniki-iqtisadi əsaslandırma hazırlanır. Növbəti illərdə biz qısa müddət ərzində milli enerji şəbəkəmizin gücləndirməsini təmin edəcək dövlət proqramını icra etməyi planlaşdırırıq.

Ölkəmizin təbii sərvətlərinin istifadəsi üçün böyük potensialın olduğunu deyən İlham Əliyev külək enerjisinin potensialını xüsusi vurğulayıb: "Bərpaolunan enerji sahəsinə investisiyalar Azərbaycana böyük həcmdə təbii qaza qənaət etmək imkanı verəcək ki, həmin qaz hazırda elektrik enerjisi istehsalı üçün istifadə olunur. Söhbət ixrac üçün qənaət ediləcək bir neçə milyard kubmetr təbii qazdan gedir. Çünki son geosiyasi dəyişikliklər nəticəsində Azərbaycan qazına Avropada heç vaxt olmadığı qədər daha çox ehtiyac var".

Prezident qeyd edib ki, Azərbaycanın bərpaolunan enerji gündəliyi təkcə günəş və ya külək elektrik stansiyaları ilə məhdudlaşmır: "Hazırda biz üç il bundan əvvəl işğaldan azad edilmiş Qarabağın və Şərqi Zəngəzurun ərazilərində hidroenerji potensialımızı fəal şəkildə inkişaf etdiririk.Biz artıq 170 meqavat gücündə olan hidroelektrik stansiyalarını istismara verimişik və bu ilin sonuna kimi bu, 270 meqavata çatacaq. İki-üç ildən sonra hidroelektrik stansiyaların gücü 500 meqavat olacaq. Bu da yaşıl enerjiyə keçid prosesinə digər mühüm bir töhfə olacaqdır. Ümumiyyətlə, Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan artıq yaşıl enerji zonası kimi elan olunub", – deyə dövlətimizin başçısı bildirib.

Qeyd edək ki, 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin iştirakı ilə inşa edilib. 2021-ci il aprelin 6-da Azərbaycanın Energetika Nazirliyi, "AzərEnerji" və "Masdar" şirkəti arasında investisiya, enerji alqı-satqısı və ötürücü şəbəkəyə qoşulma ilə bağlı müqavilələr imzalanıb. Stansiyanın təməli 2022-ci il martın 15-də "Gülüstan" Sarayında Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə qoyulub.

Qaradağ Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır. Stansiyaya 262 milyon dollar həcmində xarici sərmayə qoyulub. Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət olunacaq.

# Bu gün bir-birimizə bağlanaraq sabahı dayanıqlı edirik

## İpək Yolunun iqtisadiyyatdan mədəniyyətədək fürsətləri bu dəfə Tbilisidə müzakirə olunur

*əvvəli səh. 1-də*

Gürcüstan Hökumətinin himayəsi ilə keçirilən forumun əsas məqsədi İpək Yolu təşəbbüsünün təmsilçiləri, beynəlxalq təşkilatlar və özəl sektor nümayəndələri üçün əməkdaşlığın, beynəlxalq və regional ticarət əlaqələrinin dərinləşdirilməsi məqsədilə platforma yaratmaqdır. Tədbir Avropa və Asiya ölkələri arasında ticari-iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından ən yaxşı imkanlardan biri hesab edilir.

Baş nazir Əli Əsədov tədbirdə çıxış edib. Forumun dünyada baş verən son dəyişikliklər fonunda iqtisadi əməkdaşlıq və nəqliyyat bağlantıları ilə əlaqədar yaranan çağırışlar baxımından əhəmiyyətini vurğulayan Əli Əsədov deyib ki, Azərbaycan və Gürcüstan tarixən Avropa ilə Asiya arasında iqtisadi-ticari əlaqələrdə körpü rolunu oynayıblar və bu missiya indi də davam edir.

Qeyd edilib ki, Azərbaycan və Gürcüstan 1990-cı illərin sonlarında Böyük İpək Yolunun bərpası konsepsiyasını ilk dəstəkləyən ölkələrdən olublar. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi təşəbbüsünə ilk qoşulan Gürcüstanın ovaxtkı Prezidenti Eduard Şevardnadze olub, həmin mötəbər konfrans 1998-ci ildə 9 ölkənin dövlət




başçısının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətinin iştirakı ilə Bakıda keçirilib. Avropa İttifaqının TRACECA Proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanıb.

Baş nazir Azərbaycanın regional nəqliyyat dəhlizinin inkişafı üçün gördüyü işləri qeyd edib və müsbət nəticələrin əldə olunduğunu vurğulayıb. Bildirib ki, Qazaxıstandan Gürcüstan limanlarına çatdırılma müddəti ötən illərlə müqayisədə əhəmiyyətli dərəcədə azalıb. Növbəti il üçün hədəf bu müddəti iki dəfəyə qədər (11-15 günə) endirməkdir. Bu dəhliz dünya miqyasında ən təhlükəsiz və operativ dəhlizlərdən birinə çevriləcək. Orta Dəhlizin potensialı dəmir yolları ilə yanaşı, limanların yükaşırma qabiliyyəti ilə də sıx bağlıdır. Gürcüstanın Poti və Batumi limanları da Orta Dəhlizin mühüm elementləridir. Eyni zamanda Azərbaycanın Gürcüstanın Qara dəniz sahilində yerləşən Kulevi limanının genişləndirilməsi də Orta Dəhlizin fəaliyyətinə töhfə verəcək.

Əli Əsədov əlavə edib ki, regionda yaranmış yeni reallıqlar bölgədə çoxtərəfli əməkdaşlığın keyfiyyətcə yeni müstəviyə çıxması üçün yaxşı imkanlar deməkdir və bütün region ölkələrinə iqtisadi və ticari dividendlər gətirəcək.

Baş nazir Azərbaycanın və Gürcüstanın birlikdə həyata keçirdikləri layihələrin Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi, perspektivdə isə Cənub Qaz Dəhlizi ilə Avropaya nəql olunan Azərbaycan qazının həcminin iki dəfə artırılacağı, eyni zamanda Avropaya yaşıl enerji körpüsünün salınmasına başlandığını diqqətə çatdırıb.

Forumun işinə uğurlar arzulayan Əli Əsədov aparılacaq müzakirələrin və qəbul ediləcək qərarların Böyük İpək Yolunun inkişafına töhfə verəcəyinə, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə regional əməkdaşlığın genişləndirilməsinə şərait yaradacağına inamını vurğulayıb.

***

Gürcüstanın Baş naziri İrakli Qaribaşvili son illər İpək Yolunun inkişafı, irimiqyaslı enerji, nəqliyyat və logistik layihələrin inkişaf perspektivləri və gələcəkdə görülməsi vacib tədbirlər barədə danışıb, regionda sülhün və sabitliyin vacibliyini xüsusi qeyd edib.

Ermənistanın Baş naziri Nikol Paşinyan çıxışında ölkəsinin regional nəqliyyat layihələrində iştirakda maraqlı olduğunu, bunun üçün lazımi addımların atıldığını bildirib, habelə Azərbaycanla sülh müqaviləsinin imzalanması ilə bağlı fikirlərini bölüşüb.

Monteneqronun hökumət başçısı da ölkəsinin İpək Yoluna verdiyi diqqətdən, irimiqyaslı enerji və nəqliyyat layihələrinin əhəmiyyətindən söhbət açıb.

Forum panel iclaslarda işini davam etdirib.

Qeyd edək ki, Tbilisi İpək Yolu Forumu daha əvvəl 2015, 2017, 2019-cu illərdə keçirilib.

# Ələkbər Muradovun 75 illik yubileyi münasibətilə xatirə gecəsi

Oktyabrın 26-da Azərbaycan Dövlət Film Fondunda Əməkdar incəsənət xadimi, kinooperator, rejissor Ələkbər Muradovun (1948-2013) 75 illik yubileyinə həsr olunmuş xatirə gecəsi keçirildi. Tədbir çərçivəsində fondun foyesində sənətkarın həyat və yaradıcılığını özündə əks etdirən fotosərgi təşkil olunmuşdu.

Tədbiri Dövlət Film Fondunun direktoru Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq Ələkbər Muradovun kino və televiziya yaradıcılığı haqqında ətraflı məlumat verdi. Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunda təhsil aldıqları illərlə bağlı xatirələrini bölüşən direktor rejissoru hər zaman müstəqil və sənətini sevən insan kimi xarakterizə etdi. Bildirdi ki, Tofiq Tağızadə, Fikrət Əliyev, Davud İmanov kimi sənətkarlarla əmək fəaliyyətinə başla-






yan Ələkbər Muradov kinoda öz sözünü demiş və öz işləri ilə hər zaman diqqət çəkə bilmişdi. Rəssamlıq və fotoqrafiya ilə də məşğul olduğu üçün onun kinoda peşəkarlığı hər zaman hiss olunurdu.

Qeyd olundu ki, Ələkbər Muradovun istər bədii, istərsə də sənədli filmlərində Abşerona sevgisi, Abşeron koloriti xüsusilə nəzərə çarpır: "Təsviri sənətimizin böyük ustadlarından Səttar Bəhlulzadə ilə dostluğu və onun palitrasının rəngləri Ələkbərin bütün yaradıcılığında böyük əhəmiyyət kəsb edirdi. Bəlkə də elə bu səbəbdən əbəs deyil ki, onun son işlərindən biri məhz İctimai Televiziyada lentə aldığı Səttardan bəhs edən "Sonuncu dərviş" filmi idi".

Sonra operatorun oğlu, atasının sənət yolunu davam etdirən Murad Muradovun sənətkara həsr edilmiş "Ümid dayanacağında" filmi ilk dəfə tamaşaçılara təqdim olundu. Sənədli filmdə Ələkbər Muradovun həyat və yaradıcılıq yolundan söhbət açılır. Rejissorun ailə üzvləri, sənət dostları xatirələrini bölüşür, hələ gənc yaşlarında fotokameranın yaddaşına köçürdüyü kadrlar nümayiş olunur. Xalq artisti Mərahim Fərzəlibəyov, hazırda İsraildə yaşayan rejissor və dramaturq Yefim Abramov Ələkbər Muradovun uşaqlıq, gənclik illəri ilə bərabər, birgə yaradıcılıq prosesi barədə xatirələrini dilə gətirirlər. Filmdə rejissorun vaxtilə televiziya kanallarından birinə verdiyi müsahibədən kadrlar da yer alıb.

Nümayişdən sonra Ə.Muradovun "Yaddaşın rəmzi" filminin ssenari müəllifi Mahir Qəribov və mərhum rejissorun ailə üzvləri adından AMEA Neft və Qaz İnstitutunun şöbə müdiri Fəxrəddin Kərimov tədbirin təşkilinə görə Dövlət Film Fondunun rəhbərliyinə təşəkkürlərini bildirdilər.

Qeyd edək ki, Ələkbər Muradov Bakının Əmircan kəndində kinomexanik Yunus Muradovun ailəsində anadan olub. Azərbaycan Neft-Kimya İnstitutunda və Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsində təhsil alıb.

1973-cü ildən taleyini "Azərbaycanfilm" kinostudiyasına bağlayan Ə.Muradov burada "Qərib cinlər diyarında", "Mən mahnı qoşuram", "Qorxma, mən səninləyəm!" bədii filmlərində ikinci operator olub. O, həmçinin "Qaladan tapılan mücrü" (V.Kərimovla birgə), "Zirzəmi", "Müqəddəs oda yanaram", "O dünyadan salam" və s. bədii filmlərin quruluşçu operatorudur. 2002-ci ildə quruluş verdiyi "Güllələnmə təxirə salınır" bədii filmi milli kinomuzda özünəməxsus yer tutur. Ə.Muradovun filmoqrafiyasına "Anaya məktub", "Gəmiqaya rəsmləri", "Səadət təranələri", "Odlu ürək", "Nəsirəddin Tusi", "Bakı: müharibə illəri" və s. sənədli filmlər də daxildir.

**Lalə Azəri**

# Ağalıya daha 17 ailə köçürülüb

Oktyabrın 26-da Böyük Qayıdış Proqramı çərçivəsində Zəngilan rayonunun Ağalı kəndinə növbəti köç gerçəkləşib. Bu dəfə 17 ailə (95 nəfər) doğma yurda qayıdıb.



Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən bildiriblər ki, Bakıdan yola salınan keçmiş məcburi köçkünləri Ağalı kəndində Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Dövlət Komitəsi nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarı təqdim edilib və ailələr yeni evlərində yerləşiblər.

Qeyd edək ki, Böyük Qayıdışın ilk ünvanı olan Ağalı kəndinə sakinlərin köçü 2022-ci ilin yayında başlayıb. Ötən müddətdə kəndə ümumilikdə 150 ailə (744 nəfər) köçürülüb.

Köçürülən sakinlər müvafiq qurumlar tərəfindən peşə ixtisaslarına və bacarıqlarına uyğun şəkildə işlə təmin ediləcək, müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti şirkətlərində, tikiş fabrikində və digər yerlərdə çalışacaqlar. Köçürülmüş əhali üçün bütün infrastruktur şərait – dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və digər imkanlar mövcuddur.

Oktyabrın 28-də də Ağalı kəndinə növbəti köç olacaq. Bu dəfə 24 ailə doğma yurduna qayıdacaq.

# Azərbaycanın turizm imkanları Yaponiyada təbliğ edilir

Azərbaycanın turizm imkanları 26-29 oktyabr il tarixlərində Yaponiyanın Osaka şəhərində keçirilən "Yaponiya Expo Turizm" sərgisində (Tourism Expo Japan – 2023) tanıdılır.



Sərgi iştirakçılarına ölkəmizin malik olduğu mədəni, təbiət, sağlamlıq, işgüzar turizm imkanları, eləcə də şərabçılıq ənənəsi və qastronomiyası haqqında məlumat verilir.

Sərginin ilk günü Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə "Gerso Travel", "Asia Travel" və "ENC Tours" turizm şirkətlərinin nümayəndələri ilə Osaka Turizm Bürosu, Yaponiya Səyahət Agentlikləri Assosiasiyası və Yaponiyanın tanınmış turizm agentlikləri arasında görüşlər təşkil olunur, əməkdaşlığa dair müzakirələr aparılır. Azərbaycan Respublikasının Yaponiyadakı səfiri Gürsel İsmayılzadə də milli stendi ziyarət edərək sərginin gedişatı ilə tanış olub.

Qeyd edək ki, 2022-ci ildə Dövlət Turizm Agentliyi ilə Yaponiya Turizm Agentliyi arasında əməkdaşlıq üzrə memorandum imzalanıb. Memorandumda beynəlxalq turizm sərgiləri və digər tədbirlərdə qarşılıqlı iştirakın dəstəklənməsi də nəzərdə tutulub.

Bu il 9-cu dəfə keçirilən "Tourism Expo Japan" Asiya regionu üzrə əsas turizm platformalarından biri hesab olunur.

# "Tarix" filmi Portuqaliyaya festivala gedir

Mədəniyyət Nazirliyi tərəfindən 2020-ci ildə elan edilmiş "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsinin qalib işlərindən olan "Tarix" filmi növbəti beynəlxalq festivalda ölkəmizi təmsil edəcək.




Ceyhun Türksoyun lentə aldığı qısametrajlı animasiya filmi Portuqaliyanın Espinho şəhərində 13-19 noyabr tarixlərində keçiriləcək 47-ci "CINANIMA" beynəlxalq festivalının "Böyük panorama" proqramında yer alıb.

Festival çərçivəsində "Tarix" filminin Portuqaliya məktəblərində azyaşlı uşaqlar üçün nümayişi də təşkil olunacaq.

Mədəniyyət Nazirliyinin dəstəyi ilə "OB FILM" tərəfindən 2022-ci ildə istehsal olunmuş ekran əsərinin quruluşçu rejissoru Ceyhun Türksoy, bəstəkarı Şəmsi Tağıyev, ssenari müəllifi və prodüseri Orxan Behbiddir.

Film birinci Qarabağ müharibəsindən sonrakı dövrdə doğulan, ötən illər ərzində Qarabağın işğalı ilə heç cür barışmayan və sonda 27 illik işğalın üstündən qürurla xətt çəkən oğlanın hekayəsidir.

Qeyd edək ki, "Tarix" filmi bundan əvvəl Hindistan, Filippin, Xorvatiya və Qazaxıstanda festivallarda nümayiş olunub, uğur qazanıb.

# İfa etdiyi muğam və xalq mahnılarında yaşayır

## Səxavət Məmmədovun 70 illiyi qeyd edildi



Oktyabrın 25-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında musiqi sənətimizdə iz qoymuş xanəndə, Əməkdar artist Səxavət Məmmədovun 70 illiyinə həsr edilmiş konsert oldu.

Qonaqlar ilk olaraq böyük ekranda mərhum xanəndənin ifasının lent yazısını izlədilər. Sonra Qarabağ müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Konsertin aparıcısı Leyla Quliyeva çıxış edərək sənətkarın qısa ömür yolundan və yaradıcılığından danışdı.

Diqqətə çatdırdı ki, Səxavət Məmmədov 23 oktyabr 1953-cü ildə Ağdam rayonunun Abdal-Gülablı kəndində dünyaya göz açıb. Asəf Zeynallı adına Musiqi Texnikumunda oxuyub. Ustad xanəndə, Xalq artisti Hacıbaba Hüseynovdan muğamın sirlərini öyrənib. "Hümayun" xalq ansamblının solisti olub. Sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil alıb. Yaratdığı "Qarabağ" instrumental ansamblının kollektivi ilə getdiyi ölkələrdə muğamımızla yanaşı, Azərbaycan həqiqətlərini də dünyaya çatdırıb. 30 sentyabr 1991-ci ildə avtomobil qəzasında vəfat edib.

Bu gün görkəmli xanəndə ifa etdiyi muğam və xalq mahnılarında yaşayır. Bənzərsiz ifaları musiqisevərlər tərəfindən maraqla qarşılanır. S.Məmmədovu görən və yaxından tanıyanlarla yanaşı, onu görməyən, amma səsinin sehrinə düşən gənc nəsil də çox sevir.

Konsertdə Xalq artistləri Nəzakət Teymurova, Zabit Nəbizadə, Teyyub Aslan, Əməkdar artistlərdən Zakir Əliyev, Cabir Abdullayev, Almaz Orucova, xanəndələr Səbinə Ərəbli, Vüsal Əliyev sənətkarın repertuarından təsnif və mahnılar təqdim etdilər. İfaçıları "Qarabağ" ansamblı (bədii rəhbər Əməkdar artist Firuz Səxavət, konsertmeyster Əməkdar artist Əliağa Sədiyev (tar) müşayiət edirdi.

**S.Fərəcov**

# Azərbaycan-Amerika mədəniyyət körpüsündə kaman səsi

## Cefri Verbokla görüş və konsert

Məşhur amerikalı kamança ifaçısı Cefri Verbok uzun illərdir Azərbaycan mədəniyyətinin, musiqisinin tanınmasına töhfələr verir. Onun ölkəmizə səfəri sənətsevərlər üçün yaddaqalan hadisədir.





Oktyabrın 25-də Rəşid Behbudov adına Mahnı Teatrında "Azərbaycan–Amerika Mədəniyyət körpüsü: Cefri Verbok" adlı tədbir keçirilib. Tədbir "Heydər Əliyev İli" çərçivəsində Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə təşkil edilib.

Filologiya üzrə fəlsəfə doktoru Qivami Rəhimlinin moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycan Milli Konservatoriyasının rektoru Xalq artisti Siyavuş Kərimi, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə çıxış ediblər.

Çıxışlarda Cefri Verbokun Azərbaycanla əlaqələrindən söz açılıb. Qeyd edilib ki, Cefri Verbok ölkəmizi, xüsusilə mədəniyyətimizi, musiqimizi dünyada uğurla təbliğ edir.

Fuad Muradov qeyd edib ki, o, Ulu öndər Heydər Əliyevin diaspor quruculuğuna, o cümlədən mədəniyyətimiz, incəsənətimiz vasitəsilə Azərbaycanın dünyada tanınmasına xüsusi diqqətlə yanaşıb.

Fariz İsmayılzadə bildirib ki, ölkəmizin müstəqilliyinin bərpasının ilk illərində məhz Cefri Verbok kimi şəxslər mədəniyyət, incəsənət, musiqi yolu ilə Azərbaycanı Amerikada tanıdıblar.

Sonra Cefri Verbokun Ümummilli lider Heydər Əliyevlə görüşü barədə videoçarx nümayiş olunub, həmin görüşdə qeyd olunan məsələlərin bu gün həqiqətə çevrildiyi, ərazi bütövlüyümüzün təmin olunduğu və Azərbaycanın dostlarının da bizimlə bərabər Qələbə sevinci yaşadığı vurğulanıb.

Tədbirdə digər çıxış edənlər də Cefri Verbokla bağlı fikirlərini bölüşüblər.

Sonra amerikalı musiqiçiyə həsr olunmuş "Gənc səslər, qədim nəğmə" etnoqrafik sənədli filmindən fraqmentlər nümayiş etdirilib.

Bədii hissədə Cefri Verbok (kamança), Anar İmanov (tar) və Əsgər Əsgərzadənin (xanəndə) ifasında konsert proqramı təqdim edilib.

### "Kamançada ilk dərsim yarım əsr əvvəl olub"

"Mənim kamançada ilk dərsim 50 il əvvəl olub. Bir müddət sonra bir dostumun tövsiyəsi ilə Los-Ancelesə, Kaliforniya Universitetinə getdim. Orada musiqiləri həm ifa, həm də izah edirdim. Mənim üçün çox rahat olduğunu gördüm, hər il başqa yerlərə, başqa məkanlara getdim. Amma, sadəcə, kollec və universitetlərdə çıxış edirdim. Yavaş-yavaş bunun çox gözəl proqram olduğunu öyrəndim. Tədbirlərdə həm daha yaxşı ifa edir, həm də insanlar qarşısında necə danışmağın lazım olduğunu öyrənirdim. Ona görə də Azərbaycan muğamını ilk dəfə qulaq asanların başa düşə bilməsi üçün bu xüsusi proqramı yaratmışam".

Cefri Verbok bunu AZƏRTAC-a müsahibəsində söyləyib.

Amerikalı musiqiçi Azərbaycan muğamının ona güclü təsir etdiyini deyib: "Azərbaycan musiqisini yavaş-yavaş öyrəndim və buraya gəldim. İlk dəfə ölkənizə 1989-cu ildə gələndə Azərbaycan dilində heç danışa bilmirdim. Evimə qayıdanda fikirləşdim ki, bu dili məcburi olaraq öyrənməliyəm. O vaxtlar məktəb, müəllim, sinif, lüğət yox idi. Bu dili özüm başa düşdüm. Mən burada yaşamışam, həm də istirahət üçün qonaq kimi gəlirəm".

Musiqiçi deyib ki, muğam bizim üçün çox mürəkkəb, dərin, bir az müəmmalı və möcüzəlidir: "Bəzən "Şur", başqa vaxt "Çahargah", "Segah", "Şüştər" ifa etmək həvəsi gəlir. Yəni, ürəyimin yolu necədirsə, onu ifa edirəm...".

# Sumqayıt teatrında "Zülmətdə nur"

## Hüseyn Cavidin anadan olmasının 141-ci ildönümü münasibətilə



Mütəfəkkir şair-dramaturq Hüseyn Cavidin (1882-1941) anadan olmasının 141-ci ildönümü ilə bağlı bu günlər teatrlar repertuarında Cavid irsinə xüsusi yer ayırır.

Sumqayıt Dövlət Dram Teatrı 25 oktyabrda Nizami Muradoğlunun qələmə aldığı, teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmovun quruluş verdiyi "Zülmətdə nur" mənzum dramını tamaşaçılara təqdim edib.

Tamaşada 37-ci ilin repressiya mənzərəsi, Hüseyn Cavidin və ailəsinin faciəsi kontekstində dövrün həqiqət carçıları Əhməd Cavadın, Mikayıl Müşfiqin və ailələrinin də müsibətləri səhnəyə gətirilir. Repressiya dəhşətləri, erməni məkrləri, milli ruhun boğulması mətn, rejissor yozumu və bədii tərtibatda vəhdət şəklində tamaşaçıya çatdırılır.

Tamaşanın quruluşçu rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Telman Qəniyevdir.

# Qastrol səfərlərində "Kral ölür"

Gəncə Dövlət Dram Teatrı Mədəniyyət Nazirliyinin dəstəyi ilə Türkiyə və Gürcüstanda qastrol səfərində olub.

Kollektiv 11-15 oktyabrda Avrasiya Teatrlar Birliyi (ATB) tərəfindən təşkil edilən V Maltepe Beynəlxalq Teatr Festivalı (İstanbul) və 16-18 oktyabr tarixlərini əhatə edən XV ETHOS Beynəlxalq Teatr Festivalına (Ankara) qatılıb. Teatr hər iki festivalda rumın əsilli Fransa dramaturqu Ejen İoneskonun "Kral ölür" tamaşası ilə çıxış edib.

V Maltepe Beynəlxalq Teatr Festivalına 22 ölkə qatılıb. Gəncə teatrının direktoru Aqil Bəhramlı festivalın beynəlxalq münsiflər heyətində təmsil olunub.

Tamaşa festival iştirakçıları tərəfindən maraqla qarşılanıb. Teatrın aktyoru Elxan Yunis (Abbasov) festivalın "Ən yaxşı aktyor" nominasiyası üzrə mükafata layiq görülüb.



Festival çərçivəsində Avrasiya Teatrlar Birliyinə üzv ölkələrin təmsilçilərinin növbəti toplantısı da keçirilib. ATB-nin qurucularından və Azərbaycan təmsilçisi Yusif Cəfərov toplantıda iştirak edib.

Gəncə teatrının Ankarada XV ETHOS Beynəlxalq Teatr Festivalında çıxışı da maraqla qarşılanıb. Tamaşanın nümayişindən sonra yaradıcı heyət və ATB-nin Azərbaycan təmsilçisi Yusif Cəfərov izləyicilərin suallarını cavablandırıblar.

Gəncə Dövlət Dram Teatrı festivaldan sonra oktyabrın 19-da Türkiyənin Amasiya şəhərinə qastrola gedib. "Kral ölür" tamaşasının izləyiciləri arasında vaxtilə Azərbaycanın müxtəlif yerlərindən Amasiyaya köçmüş soydaşlarımız da olub.

Qardaş ölkənin media orqanlarında Gəncə teatrı və onun tamaşası haqqında materiallar yayımlanıb.

***

Oktyabrın 22-də Gəncə teatrının növbəti qastrol ünvanı Gürcüstan olub. Kollektiv Ozurgeti Dövlət Dram Teatrında da "Kral ölür" tamaşasını təqdim edib.

Qeyd edək ki, 2016-cı ildə Ozurgeti və Gəncə teatrları arasında memorandum imzalanıb.

Xatırladaq ki, "Kral ölür" tamaşasının quruluşçu rejissoru Tural Mustafayev, rəssamı Mustafa Mustafayevdir. Rollarda Əməkdar artistlər Elxan Yunis, İlham Hüseynov, Sevda Orucova, Kəmalə Məmmədova, aktyorlar Günay Cabbarova və Ruslan Hüseynov çıxış edirlər.

# Özbəkistanın teatr kollektivi ölkəmizə qastrola gəlib

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Özbəkistanın Sırxandərya vilayətindəki Kuğurcaq Dövlət Teatrının kollektivi ölkəmizə qastrola gəlib.



Salyan Dövlət Kukla Teatrında qastrolun açılış mərasimində Mədəniyyət Nazirliyi Teatr sektorunun müdiri Vəfa Novruzova, Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov, mədəniyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Qeyd edək ki, özbək teatrı 24-26 oktyabr tarixlərində Salyanda çıxış etdikdən sonra 27 oktyabrda Biləsuvar, 28 oktyabrda isə Neftçala rayonlarında qonaq olacaq.

# "Cadenza" orkestrinin "Oktyabr palitrası"

"Cadenza" orkestri oktyabrın 25-də Beynəlxalq Muğam Mərkəzində növbəti konsert proqramını təqdim etdi.



"Oktyabr palitrası" adlı konsertdə bəstəkarlardan Alexandra Filonenko (Almaniya), Vitold Lutoslavski (Polşa), İqor Stravinski (Rusiya) və Səid Qəninin (Azərbaycan) əsərləri ifa olundu.

İqor Stravinskinin kamera orkestri üçün "Dumbarton Oaks" konserti Azərbaycanda uzun illərdən sonra səsləndi. Əsər müəllifin neoklassik üslubunu parlaq şəkildə əks etdirir. "Dumbarton Oaks" 1938-ci ildə Bliss cütlüyü tərəfindən evliliklərinin 30-cu ildönümü münasibətilə bəstəkara sifariş edilib. Cütlüyün Vaşinqtondakı Dumbarton Oaks malikanəsində olarkən evi əhatə edən gözəl bağlar İ.Stravinskini o qədər heyrətləndirir ki, o, konsertini bağların struktur tərtibatı üzərində qurmağa qərar verir...

**Lalə**

# "Şərq musiqisinin incisi" kitabının təqdimatı

Oktyabrın 26-da Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecində yazıçı-publisist Mustafa Çəmənlinin ustad xanəndə, Xalq artisti Seyid Şuşinskiyə həsr olunmuş "Şərq musiqisinin incisi" kitabının təqdimatı olub.

Kollecin direktoru Əməkdar incəsənət xadimi Nazim Kazımov, kitabın müəllifi Mustafa Çəmənli, sənətşünaslıq üzrə fəlsəfə doktoru Səadət Təhmirazqızı Seyid Şuşinskinin həyat və yaradıcılığından söhbət açıblar.

Bildirilib ki, zəngin yaradıcılıq yolu keçmiş sənətkar Azərbaycan milli musiqi mədəniyyətinin inkişafına, yeni ifaçılar nəslinin yetişməsinə mühüm töhfələr verib. Onun tələbələri arasında Əlibaba Məmmədov, İslam Rzayev, Qulu Əsgərov, Nəriman Əliyev kimi muğam sənətimizdə özünəməxsus dəst-xətti ilə seçilən sənətkarlar olub. Qeyd edilib ki, kitabda Seyid Şuşinskinin yetirmələri və həmkarlarının sənətkar haqqında fikirlərinə, xatirələrinə də yer verilib.

Tədbir bədii hissə ilə davam edib.

# Türk dünyası media və incəsənət simpoziumu

Oktyabrın 26-da Bakı Dövlət Universitetində (BDU) Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin və qardaş Türkiyə Cümhuriyyətinin 100 illik yubileylərinə həsr olunmuş III Türk Dünyası Kommunikasiya (Media) və İncəsənət Simpoziumu işə başlayıb.



Tədbirdən əvvəl simpozium çərçivəsində qrafik dizayn sərgisinə baxış keçirilib.

BDU-nun rektoru Elçin Babayev tədbiri açaraq 2023-cü ilin Türk dünyası və Azərbaycan üçün əlamətdar olduğunu deyib. Bildirib ki, artıq azad Qarabağımız Türk dünyasının birləşmə nöqtəsinə – siyasi, iqtisadi, mədəni tədbirlərin keçirilmə məkanına çevrilir. Bu il "Türk dünyasının mədəniyyət paytaxtı" olan Şuşada bir çox mötəbər tədbirlər, o cümlədən Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumu keçirilib.

Türk Dünyası Jurnalistlər Federasiyasının sədri Menderes Demir qeyd edib ki, türk dövlətləri böyük bir ailədir. Bu ailənin həmişə güclü olması üçün türkdilli dövlətlərin mətbuat, mədəniyyət xadimlərinin, alimlərinin üzərinə böyük vəzifə düşür.

Özbəkistan Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti İnsan hüquqları və mədəniyyət kafedrasının müdiri Nazire Taşpolatova, Qazaxıstan Avrasiya Universiteti Jurnalistika fakültəsinin dekanı Kairat Omirbayulya, Şimali Kipr Türk Cümhuriyyətinin Lekfe Avropa Universiteti Kommunikasiya fakültəsinin dekanı Elif Asude Tuncay çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

Tədbirdə BDU və Türk Dünyası Jurnalistlər Federasiyası arasında əməkdaşlıq protokolu imzalanıb.

Simpoziumun açılış mərasimindən sonra Türk Dünyası Jurnalistlər Federasiyasının təşkilatçılığı ilə bu günlərdə Ankarada keçirilən VIII Türk Dünyası Sənədli Film Festivalında baş mükafatı qazanan rejissor Vaqif Mustafayevin "Fikrət Əmirov" filmi nümayiş olunub.

Xalq artisti Vaqif Mustafayev filminin ərsəyə gəlməsindən danışıb. Qeyd edib ki, dahi bəstəkar haqqında film çəkməklə özümü xoşbəxt hiss edirəm. Bu filmin mənim yaradıcı həyatımda xüsusi yeri var. Rejissor filmin 5 dilə tərcümə olunduğunu bildirib.

Xatırladaq ki, "Doqquz ölkə, doqquz şəhər, bir festival" şüarı altında keçirilən ənənəvi festivalda mükafata layiq görülən filmlərin nümayişi Azərbaycandan, Bakıdan başlanır.

# Bölgələrdəki mədəniyyət müəssisələrinin "Heydər Əliyev İli" tədbirləri davam edir



Hacıqabul rayon Mədəniyyət Mərkəzində "Heydər Əliyevin Azərbaycan mədəniyyətinə töhfəsi" adlı tədbir təşkil edilib. Çıxış edənlər Ulu öndərin möhtəşəm Zəfərimizə hesablanmış parlaq siyasəti və gərgin əməyi, həmçinin mədəniyyətimizin inkişafı istiqamətində atdığı addımlar barədə danışıblar. Tədbirin bədii hissəsində mədəniyyət işçilərinin ifasında dahi lider Heydər Əliyevin sevdiyi şeir və mahnılar səsləndirilib.

Şirvan Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları 18 nömrəli Təbiət-humanitar təmayüllü məktəb-liseyində "Ulu sərkərdə, ulu öndər" adlı tarix dərsi keçiblər. Şagirdlərin Ulu öndərlə bağlı sualları cavablandırılıb. Sonda dahi liderin həyat və siyasi fəaliyyətini əks etdirən film nümayiş olunub.

***

Lənkəran MKS-nin Mərkəzi Kitabxanasında "Heydər Əliyev siyasəti xoşbəxt gələcəyimizin təminatçısıdır" adlı tədbir keçirilib. Çıxışlarda Ümummilli liderin elm, təhsil, mədəniyyət xadimlərinə göstərdiyi diqqət və qayğıdan söz açılıb. Lənkəran şəhər 10 saylı tam orta məktəbin və 4 saylı Humanitar təmayüllü məktəb-liseyin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər. Gənc müğənni Allahverən Pərvizoğlunun ifasında sözləri Sevindik Nəsiboğluna, musiqisi Mehriban Aydınqızına məxsus olan "Ulu öndərimiz" mahnısına çəkilmiş klip nümayiş etdirilib.

***



Zərdab rayon Mərkəzi Kitabxanasında "Tarix yazan əbədiyaşar lider" mövzusunda dəyirmi masa keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, xatirəsini ehtiramla anıblar. Məktəblilər Heydər Əliyevə həsr olunmuş şeirləri səsləndiriblər.

***

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə keçirilən silsilə tədbirlərin davamı olaraq Beyləqan rayon Mədəniyyət Mərkəzi "Gənclik" xalq teatrının təqdimatında "Cırtdan" kukla tamaşasının premyerası olub. Tamaşanı Vətən müharibəsi şəhidləri və qazilərin övladları, "Montessori" uşaq inkişaf mərkəzindən və uşaq bağçalarından fidanlar izləyiblər. Tamaşa uşaqlar tərəfindən maraqla qarşılanıb.

# Kürdəmirdə Məmməd Arazın 90 illiyi qeyd olunub

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialında (Kürdəmir şəhəri) Xalq şairi Məmməd Arazın (1933-2004) 90 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.



Muzeyin Aran regional filialının müdiri filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı, Kürdəmir şəhər 4 nömrəli tam orta məktəbin dil-ədəbiyyat müəllimi Aytən Umudova, rayon icra başçısının müavini Vəsilə Əsgərli, yazıçı-publisist Əlisəfa Azayev, Mərkəzi Aran RMİ-nin Kürdəmir rayonu üzrə nümayəndəsi Vaqif Alıyev, kitabxanaçı, şəhid anası Müşkünaz Əliyeva və başqaları şairin yaradıcılığından danışıblar.

Məktəblilər Məmməd Arazın şeirlərini söyləyiblər. Şairin həyat və yaradıcılığı ilə bağlı videoçarx nümayiş etdirilib, sözlərinə bəstələnmiş musiqi nümunələri səsləndirilib.

Sonda Məmməd Arazın şeirlərini daha yaxşı qiraət edən şagirdlərə Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fəxri fərmanları təqdim olunub.

# Vətəni canından əziz bilənlər

Şərqi Zəngəzur RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Milli Qəhrəman, Vətən müharibəsinin şəhid polkovniki Şükür Həmidovun anım mərasimi keçirilib. Tədbirdə Vasili Əliyev adına Qubadlı rayon və Mahmudlu kənd mədəniyyət evlərinin əməkdaşları tərəfindən kompozisiya təqdim edilib, şeirlər söylənilib.

Şükür Həmidov 1975-ci il aprelin 1-də Qubadlı rayonunun Armudlu kəndində anadan olub. 2016-cı ilin Aprel döyüşlərinin də iştirakçısı olan Ş.Həmidov Lələtəpə strateji yüksəkliyinin azad edilməsində xüsusilə fərqlənib. Prezident İlham Əliyevin 20 aprel 2016-cı il tarixli sərəncamı ilə ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib. Vətən müharibəsi zamanı 2-ci Ordu Korpusunun komandir müavini olan Ş.Həmidov Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı istiqamətindəki döyüşlərdə böyük şücaət göstərib. Oktyabrın 22-də Qubadlının azadlığı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Zəfər" ordeni, "Vətən uğrunda", Füzuli, Cəbrayıl və Qubadlının azad olunmasına görə medalları ilə təltif olunub.









***

Zaqatala rayonunda Vətən müharibəsi şəhidləri Rəsul Süleymanlı və Əhməd Putiyevin şəhadətə yüksəlmələrinin üçüncü ildönümü ilə əlaqədar anım tədbirləri keçirilib. Çıxış edənlər şəhidlərin qanının yerdə qalmadığını, düşməndən qisas alındığını, doğma Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunduğunu vurğulayıblar. Məktəblilər şəhidlərə, Vətənə aid şeirlər söyləyiblər.

Rəsul Süleymanlı 2002-ci il yanvarın 19-da Zaqatala şəhərində anadan olub. Vətən müharibəsinin ilk günündən snayper kimi döyüşlərə qatılan Rəsul Tərtər rayonu istiqamətindəki döyüşlərdə şəhid olub. Ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Əhməd Putiyev isə 2001-ci il avqustun 12-də Zaqatalanın Mazıx kəndində doğulub. Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda döyüşlərdə şəhidlik zirvəsinə yüksəlib. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***

Qax rayonundakı mədəniyyət müəssisələrinin əməkdaşları tərəfindən Vətən müharibəsinin şəhid baş əsgəri Nihad Abbasova həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə şəhidin məzarını ziyarət edilib, ruhuna dualar oxunub. Çıxış edənlər 44 günlük müharibədə qazanılan Zəfərin əhəmiyyətindən söz açıb, şəhidlərimizin heç vaxt unudulmayacağını söyləyiblər.





Nihad Abbasov 2000-ci il iyulun 25-də Qax rayonunun İlisu kəndində anadan olub. Vətən müharibəsi zamanı Suqovuşan və Talış kəndlərinin azadlığı uğrunda döyüşlərdə iştirak edib. Oktyabrın 9-da Ağdərə istiqamətində şəhid olub. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

***

Astara rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsinin şəhid giziri Baba Qasımovun ailəsini ziyarət ediblər.

Baba Qasımov 1989-cu il noyabrın 1-də Astara rayonunun Ərçivan qəsəbəsində anadan olub. Vətən müharibəsi zamanı oktyabrın 21-də Qubadlının azadlığı uğrunda döyüşlərdə şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", Füzuli, Qubadlı və Xocavəndin azad olunmasına görə medalları ilə təltif edilib.

***

Şirvan-Salyan RMİ-nin rəisi Şahin Şahbazov və bir qrup mədəniyyət nümayəndəsi Vətən müharibəsinin şəhid kapitanı Samir Mehdiyevin anım günü münasibətilə ev-muzeyini və məzarını ziyarət edib.

Samir Mehdiyev 1990-cı il dekabrın 11-də Şirvan şəhərində anadan olub. 2016-cı ilin Aprel döyüşlərinin də iştirakçısı olan S.Mehdiyev Vətən müharibəsi zamanı oktyabrın 23-də Füzuli döyüşlərində şəhid olub. Ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni, "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şirvanda Vətən müharibəsinin daha bir şəhidi Şəmsəddin Vəliyevin xatirəsi yad olunub. Şəhidin həyatı və döyüş yolundan söz açılıb. Qeyd olunub ki, Ş.Vəliyev 2001-ci il yanvarın 22-də Sabirabad rayonunun Dadaşbəyli kəndində dünyaya göz açıb. Vətən müharibəsi başlayan gündən ön cəbhədə yer alan Şəmsəddin Füzuli, Xocavənd və Şuşa istiqamətlərindəki döyüşlərdə iştirak edib. Oktyabrın 24-də Xocavəndin Tuğ kəndi istiqamətində şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Füzuli, Xocavənd və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

***

Şəmkir rayon Mərkəzi Kitabxanasında 44 günlük Vətən müharibəsi şəhidləri Hafiz Həziyev, Nəriman Rəsulov və Elmin Quluzadənin doğum günləri ilə əlaqədar "Sizinlə qürur duyuruq!" başlığı altında tədbir keçirilib. Şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onların qəhrəmanlığından danışılıb. Sonda mövzu ilə bağlı tərtib edilmiş sərgiyə baxış olub.

**Hazırladı: N.Məmmədli**

# "Zamanın ruzigarı"ndan Mingəçevir səhnəsinə



Mingəçevir Dövlət Dram Teatrı tanınmış yazıçı Xeyrəddin Qocanın "Zamanın ruzigarı" pyesi əsasında "Molla Nəsrəddin" tamaşasını nümayiş etdirib.

Cəlil Məmmədquluzadənin keşməkeşli həyatından, "Molla Nəsrəddin" jurnalının nəşrinin çətinliklərindən bəhs edən pyesi teatrın baş rejissoru Vüsal Mehrəliyev səhnələşdirib.

Quruluşçu rəssam Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rejissor assistentləri İlahə Qasımova, Çiçək İsmayılzadədir. Rəqslərin quruluşu Eyvaz Əliyevə məxsusdur.

Rolları teatrın aktyorları Aydın Quliyev (Mirzə Cəlil), Vüsalə Əliyeva (Həmidə xanım), Paşa Salmanov (Mirzə Ələkbər Sabir), Şıxı Yaqubov (Əbdürrəhim bəy Haqverdiyev), Hüseyn Mustafayev (Kefli İsgəndər), Qabil İbrahimli (Hacı Həsən), Arif Əhmədov (Vəli Xan), Asim Məmmədov (Novruzəli) oynayıblar.

Tamaşa maraqla qarşılanıb.

# Pantomima Teatrı "İblis"i Qusarda göstərib



Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində paytaxtda fəaliyyət göstərən teatrların bölgələrə qastrol səfərləri davam edir. Aksiya çərçivəsində Azərbaycan Dövlət Pantomima Teatrı oktyabrın 25-də Qusar şəhərinə səfər edib. Kollektiv Qusar Dövlət Ləzgi Dram Teatrında Hüseyn Cavidin "İblis" əsərinin tamaşasını nümayiş etdirib.

Quruluşçu rejissoru Əməkdar artist Bəhruz Vaqifoğlu olan tamaşa teatrsevərlərin sürəkli alqışları ilə qarşılanıb.

Qusar rayon rəhbərliyi Dövlət Pantomima Teatrının kollektivinə təşəkkür edib, onların bu gəlişinin qusarlı teatrsevərlər üçün əsl bayram olduğunu vurğulayıb.

# Bu lağlağı lap ağ oldu ki...

## Şuşa teatrında baxdığımız nə idi?



...Bu günlərdə "Molla Nəsrəddini tapın" əmr-fərmayişinə əməl edib yol aldım Bakıda məkan olub, arabir Şuşaya gedib-gələn Şuşa Dövlət Musiqili Dram Teatrına. Kollektivin bir qədər əvvəl azad Qarabağda bəh-bəh ilə göstərdiyi birhissəli məzhəkəyə baxmağa. "Məzhəkə" sözünü yadınızda saxlayın, çünki hələ onunla "söhbətim" var. Amma, hələ mətləbə keçmirəm.

Tamaşa teatrın hələlik son premyerasıdır və afişa qeydinə görə mətn müəllifi gənc yazar Jalə Novruzdur. Quruluşu teatrın baş rejissoru Əməkdar artist Loğman Kərimov verib.

Molla Nəsrəddin rolunu Əməkdar artist Teymur Məmmədov, Mollanın arvadını Xalq artisti Şükufə Musayeva, Xanı Rasəf Mehdiyev, Əzraili Hamlet Qənbərov oynayır. Digər obrazları Dürdanə Dünyamalıyeva, Təranə Əliyeva, Nihad Heybətov, Mobil Qurbanov, Vüsal Məmmədov, Sevinc Ağayeva, Bahar Həmzəyeva, Gündüz Qasımov və Orxan Abışov təqdim edirlər.

Əslində, rəssam işindən əlamət olmayan səhnə tərtibatı Valeh Məmmədova, teatrın ansamblının (xanəndələr: Bəxşeyiş Mehdiyev, Vüsalə Allahverdiyeva, Rakif Rüstəmov, Maşallah Mirzəyev; tar: Ozal Məmmədxanlı, kamança: Elmar Ələkbərov) iki dəfə səhnədə zühurunu çıxmaq şərti ilə bizi "palatka toyu"nda şıdırğı oynadan musiqi tərtibatı Ağasəlim Feyzullayevə adidir.

Hə, demişdim axı məzhəkə məsələsini yadıma salın. Haman o məbud gülməli, güldürücü danışıq, söhbət, hərəkət, oyun, əhvalat, lətifədir. Dilimizin izahlı lüğətində belə yazılıb. Amma mənim yaddaşım bu məzhəkəbazlığı böyük Mirzəmizin "Dəli yığıncağı"nda işlətdiyi "Bu saat sizi aparacağam dəlixanaya, orada ağlınız başınıza gələr və dəxi həzrətin tumanbağısını məzhəkəyə qoymazsınız"la başlayıb bitirir.

Qaldı ki, bu məzhəkə-tamaşaya, bəri başdan deyim ki, bu, birmənalı alınmayıb. Çünki o boyda mərəkədə hadisə, təsvir, konflikt, kulminasiya, final bir yana qalsın, ideya belə yox idi. Bəs bir çətən adam səhnədə nə deyib, nə göstərirdilər?...

Tamaşa boyu səhnədə bir fağır Xan və onun sağ-solunda gonbul-arıq tərs-mütənasibliyində iki arvadı var. Xan bizim uzaq keçmişdəki məmurlardan biri kimi danışır deyə, zal yalnız o diksiyaya gülür və bu sayədə aktyor oyundan çox təqlid edir. Rejissor da məhz bunu istəyib və məncə, düz edib. Çünki səhnədəki Xanın ən böyük dərdi gülməkdir. Daha doğrusu, bütün tamaşadakıların ümdə vəzifəsi onu güldürməkdir. Hekayə də buradan başlayır. Naxoşlayan Xanı güldürmək üçün şəhərin ən baməzə adamı olan Molla Nəsrəddini soraqlayırlar. Carçı deyir ki, bəs kim Xanın kefini açıb onu güldürsə, özü ağırlığında ənam alacaq. Əgər bacarmasa, boynu vurulacaq.

Əlqərəz, şəhərin nə qədər divanxana lotusuna oxşayan bekar, aciz-avarası var, hərəyə bir əmmamə qoyub yol alırlar saraya. 4-5 dəfə Xanın qarşısına çıxıb hərəsi bir Molla Nəsrəddin əhvalatı danışmağa çırmanır. Heç biri onu güldürə bilmir və hər dəfə "Cəllad, dıt" əmri verilir. Dalınca da (zala işarə ilə) "Qonaqlar var, sonra" ilə ertələnir.

Nəhayət, Molla Nəsrəddin gəlir. Arvadının əlində əsir-yesir olan Molla Nəsrəddinin nə edib, nə niyyətdə olduğunu dərkə gücümüz çatmasa da. Sonra muğamçılar yetişirlər. Axırda da "palatka toyu" ilə şıdırğı oynayırıq. Əl çalırıq və pərdə bağlanır...

Hələ də oturmuşam. Hadisənin şokunda da deyiləm. Bu kimi bir neçə tamaşa görmüşəm son 15-20 ildə. Sadəcə, bu dəfə Mollaya qəzəblənirəm. Ürəyimdə "Ay kişi, o boyda ad-sanın var, xeyli də yol yortub gəlmisən. Bu nə məzhəkə idi çıxardın?" demək istəyirdim ki, gec açılıb, tez bağlanan pərdənin arxasında eşidiləcək qədər qulağa gələnləri "götürüb" (səhnə də, kulis də aktyorundur və öz oyununa ən yaxşı qiyməti o özü verir) teatrı tərk edirəm.

Bayırdakı külək vıyıldaya-vıyıldaya qulağıma Mollanın "Cənab qazı, zəhmət çəkməyin!... Mən kağıza baxmışam. Səhv kağızda deyil, yağ küpəsindədir" əhvalatını yetirir. Öz-özümə "Şükür, yenə yaxşı qurtardıq" deyib qəşş edirəm...

**Həmidə Nizamiqızı**

# Akademik Musiqili Teatrda “Leyli və Məcnun” tamaşasının premyerası

Xəbər verdiyimiz kimi, Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Üzeyir Hacıbəylinin “Leyli və Məcnun” muğam operasının və Məhəmməd Füzulinin “Leyli və Məcnun” poemasının motivləri əsasında rejissor Samir Qulamovun librettosu və quruluşunda eyniadlı tamaşa hazırlanıb. Oktyabrın 24-də tamaşanın premyerası olub.





Klassik əsər yeni rejissor yozumunda orijinallığını saxlasa da, fərqli təqdimatı ilə diqqət çəkir.

Tamaşanın bədii rəhbəri Akademik Musiqili Teatrın direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu rəssamı Vüsal Rəhim, xormeysteri Əməkdar artist Vaqif Məstanov, muğam ifası üzrə məsləhətçisi Xalq artisti Səkinə İsmayılovadır.

Baş rollarda muğam müsabiqələrinin qalibləri İlahə Rüstəmova (Leyli) və Orxan Hüseynli (Məcnun) çıxış ediblər.

Tamaşanın quruluşçu baletmeysteri Əməkdar artist Emin Əliyev həm də Məcnunun ruhu obrazını canlandırır. Leylinin ruhu obrazının ifaçısı teatrın balet artisti İranə Kərimovadır.

Tamaşada Əməkdar artist Nadir Xasıyev, Prezident mükafatçıları Səmədzadə Xasiyev, Əmrah Dadaşov, artistlər Gülnarə Abdullayeva, Təranə Əliyeva, Bacıxanım Sadıqova, İbrahim Əlizadə, Emin Zeynallı, Əli Kərimov, Murad Əliyev, Böyükxanım Məmmədova, Mirzəhra Muradova, Aydan Əliyeva, eyni zamanda teatrın xor və balet heyətinin üzvləri iştirak ediblər.

Solo tar ifaçıları Əməkdar artist Elxan Mansurov, gənc tarzənlər Səxavət Məmmədov, Cahid Əlizadə, konsertmeyster Fidan Əliyeva, rejissor assistentləri Prezident mükafatçısı Əmrah Dadaşov və Sevinc Məmmədovadır.

Qeyd edək ki, tamaşanın növbəti nümayişi noyabrın 18-də olacaq.

# Tanınmış qarmon ifaçısının 80 illiyi qeyd olundu

Oktyabrın 24-də Beynəlxalq Muğam Mərkəzində Əməkdar artist, qarmon ifaçısı, bəstəkar, pedaqoq Zakir Mirzəyevin 80 illik yubileyinə həsr olunan tədbir keçirildi.



Ustad ifaçının uzun illər işlədiyi Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin təşəbbüsü və təşkilatçılığı ilə gerçəkləşən tədbirdə tanınmış mədəniyyət xadimləri, musiqi ictimaiyyətinin nümayəndələri iştirak edirdilər.

Xalq artisti Ənvər Sadıqovun rəhbərlik etdiyi “Qaytağı” ansamblının idarəçiliyi ilə keçən tədbir yubilyarın müəllifi olduğu “Şənlik” rəqsinin ifası ilə başlandı. Daha sonra Xalq artisti, Milli Konservatoriyanın rektoru Siyavuş Kərimi çıxış edərək Zakir Mirzəyevin Azərbaycan milli musiqi sənətində və onun tədrisi sahəsində xidmətlərindən danışdı.

Yubilyar səhnəyə çıxaraq sənət dostları, tanınmış nağaraçı Elşən Qasımov və klavişin ifaçısı Adil Məmmədli ilə birlikdə “Muğam və rəqs” əsərini ifa etdi. Musiqi Kollecinin direktoru Əməkdar incəsənət xadimi Nazim Kazımov Zakir Mirzəyevi istedadlı ifaçı, muğamın bilicisi, mahir pedaqoq və ifaçı kimi səciyyələndirdi.

Xalq artisti, bəstəkar Tofiq Bakıxanov, Əməkdar incəsənət xadimi, bəstəkar Aydın Əzim, professor Fərahim Sadıqov yubiley münasibətilə sənətkarı təbrik etdilər.

Qeyd olundu ki, Zakir Mirzəyev qarmonu simfonik orkestrlə uzlaşdıran ilk ifaçıdır. O, Vyanada Üzeyir bəyin heykəlinin açılışı zamanı Motsartın əsərini qarmonda səsləndirərək Avropa dinləyicilərinə bu alətin Azərbaycan musiqi ifaçılığında mühüm yer tutduğunu sübut edib.

Xalq artistləri Gülyanaq Məmmədova, Teyyub Aslanov, Eyyub Yaqubov, Z.Mirzəyevin tələbələrindən ibarət qarmonçalanlar ansamblı, qarmon ifaçısı Natiq Mirzəyev, Dağıstanın Əməkdar artisti Qulammirzə Mirzəyev, muğam müsabiqəsinin qalibi Zabitə Alıyeva və başqaları yubilyara təbriklərini mərasim boyu təqdim etdikləri musiqi nömrələri ilə çatdırdılar.

Qeyd edək ki, Zakir Mirzəyev 100-ə qədər rəqs havası bəstələyib. 2005-ci ildə “Azərbaycan musiqisində qarmonun rolu və əhəmiyyəti” mövzusunda fəlsəfə doktorluğu dissertasiyası müdafiə edib. 2007-ci ildə uzun illər üzərində çalışdığı soltərəfli yeni Azərbaycan qarmonu hazırlayıb. 2008-ci ildə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyindən bu ixtirasının patentini alıb. Sənətşünas eyni zamanda bir sıra dərslik və monoqrafiyaların da müəllifidir. “Azərbaycan qarmonu” monoqrafiyası iki dəfə çap edilib. “Qarmon məktəbi” dərsliyi və “Rast muğamı” metodik vəsaiti müvafiq sahə üzrə təhsil ocaqlarında istifadə olunur.

**Lalə Azəri**

# Hüseyn Cavidin “İblis” pyesi xoreoqrafik tamaşa kimi səhnələşdirilib

Bakı Xoreoqrafiya Akademiyasının (BXA) təşkilatçılığı ilə mütəfəkkir şair və dramaturq Hüseyn Cavidin (1882-1941) “İblis” pyesi səhnələşdirilib.



Ədibin anadan olmasının 141-ci ildönümü münasibətilə hazırlanan tamaşa oktyabrın 24-də Rəşid Behbudov adına Azərbaycan Dövlət Mahnı Teatrının səhnəsində təqdim olunub.

Tədbirdə BXA-nın rəhbərliyi, müəllim və şagird heyəti, mədəniyyət və incəsənət xadimləri, media nümayəndələri, ictimai fəallar iştirak ediblər.

“İblis” pyesində Cavidin filosof və humanist kimi düşüncələrinin açılması, ədalətsiz savaşlara, müharibə səbəbkarlarına nifrət oyatması ideyaları BXA-nın tam orta təhsil pilləsinin şagirdlərinin ifasında xoreoqrafik kompozisiyalarda öz əksini tapıb.

Səhnə əsəri böyük maraqla qarşılanıb.

# Kuklaçıların “İtki”si

Dünya yaranandan insanların itmək, itirmək kimi bir qorxusu olub. Bir də insanın mənəvi itkisi, fiziki yoxluğundan da ağır mənəvi yoxluğu var. Birdən ən yaxının, ən doğman belə səni görüb, hiss etmir və nəticədə sən böyük bir adaya düşərək tənhalığa məhkum edilmiş adama çevrilirsən...

Çağdaş texnologiya oyunbazlığı ucbatından ən yaxınlarımızı – valideynlərimizi, övladlarımızı, dostlarımızı diqqətsiz qoya və beləcə, təəssüf ki, itirə bilirik.

Azərbaycan Dövlət Kukla Teatrı bu dəfə sosial şəbəkələr, günü-gündən artan internet asılılığı ucbatından virtual aləmə aludə olanları mövzu edib.

Teatrın rejissoru Anar Məmmədovun ideya və quruluş müəllifi olduğu “İtki” tamaşasının qəhrəmanı ətrafının diqqətindən kənarda qalan balaca oğlandır. Valideynlərinin onunla ünsiyyətdən daha çox mobil oyunlarda, sosial şəbəkələrdə vaxt keçirmələri, övladlarına ayıracaq zamanı qlobal virtual əyləncəyə fəda etmələri sonda ağır fəsada gətirib çıxarır...

10+ yaş qrupu auditoriyası üçün nəzərdə tutulan pantomim tamaşanın quruluşçu rəssamı Rəna Abbasovadır. Səhnə əsəri “qara kabinet” üslubundadır. Quruluş heyəti bu vasitə ilə tamaşaçının diqqətini minimalist məkanda bəşəri problemlərə çəkməyə, onları daha real düşünməyə səsləyir.

Premyera noyabrın ortalarına nəzərdə tutulub.

# Rus Dram Teatrı “Albalı bağı”na dəvət edir

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrında cari teatr mövsümünün ilk premyerası olub. Ötən həftəsonu teatr böyük rus dramaturqu A.P.Çexovun “Albalı bağı” pyesini sənətsevərlərə təqdim edib.



Müəllifin son dram əsəri olan “Albalı bağı” özündə keçmişlə gələcəyin, köhnəliklə yeniliyin qarşıdurmasını əks etdirir. Teatrın baş rejissoru Xalq artisti Aleksandr Şarovskinin quruluş verdiyi tamaşada Xalq artistləri Natalya Şarovskaya (Ranevskaya), Fuad Osmanov (Qayev), Ayan Mirqasımova (Şarlotta), Əməkdar artistlər Mariya Dubovitskaya (Anya), Murad Məmmədov (Lopatin), Teymur Rəhimov (Trofimov), Yuri Omelçenko (Yepixodov), Həcər Ağayeva (Dunyaşa), Salman Bayramov (Firs), aktyorlar Rüstəm Kərimov (Çexov), Olqa Arsentyeva (Varya), Rüfət Nəzərov (Simeonov-Pişşik) və başqaları məşğuldur.

Tamaşada Anar Yusufov, Yevgeni Sokolovski, Çarli Çaplin və Cüzeppe Verdinin musiqilərindən istifadə edilib.

# Daha bir festival

## Şanlı Zəfərin üçüncü ildönümü münasibətilə

Bakı Uşaq və Gənclər Teatrı Vətən müharibəsində Qələbəmizin üçüncü ildönümü münasibətilə “Bir teatr – bir festival” layihəsi çərçivəsində “3+3=7” festivalını keçirir.

Mədəniyyət Nazirliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstək verdiyi festival 1-3 noyabr tarixlərində keçiriləcək.

Proqrama daxil edilən səhnə nümunələri Azərbaycan Teatr Xadimləri İttifaqında (ATXİ), eləcə də Akademik Milli Dram, Akademik Musiqili və Gənc Tamaşaçılar teatrlarında nümayiş olunacaq.

Teatr prosesinə dəstək vermək və tamaşaçıların teatrlarla ünsiyyətini artırmaq məqsədi daşıyan festivalın proqramı zəngindir.

Akademik Milli Dram Teatrı “Küknarlara məktub”, Akademik Musiqili Teatr “Bir nəfəs qədər”, Gənc Tamaşaçılar Teatrı “İnanıram”, Azərbaycan Dövlət Kukla Teatrı “Müsyö Jordan və dərviş Məstəli şah” (marionet tamaşa), Lənkəran Dövlət Dram Teatrı “Haqqın 44 günü”, Mingəçevir Dövlət Dram Teatrı “Adsız”, Bakı Uşaq və Gənclər Teatrı isə “Son nəfəsə qədər”, “Cənnətə bilet” və “Vətən” tamaşalarını təqdim edəcəklər.

Festivalın açılış (1 noyabr) və bağlanış mərasimləri (3 noyabr) ATXİ-nin əsas zalında olacaq.

“Heydər Əliyev İli”

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları “Heydər Əliyev İli”nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (73)

### 1997-ci il 8 oktyabr

Prezident Heydər Əliyev Səməd Vurğunun qızı, şairin ev-muzeyinin baş mühafizi Aybəniz Vəkilovanı 60 illik yubileyi münasibətilə təbrik edib.

### 1997-ci il 11 oktyabr

Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etmək üçün Strasburqa səfəri zamanı Fransada yaşayan soydaşımız, türkoloq alim, professor İren Məlikova ilə görüşüb.

### 1997-ci il 17 oktyabr

Respublika Sarayında görkəmli müğənni və bəstəkar Müslüm Maqomayevin anadan olmasının 55 və yaradıcılıq fəaliyyətinin 35 illiyinə həsr olunmuş yubiley gecəsində nitq söyləyib.

*“...Biz bu gün burada Azərbaycanın zəngin mədəniyyətinin ən gözəl şaxələrindən biri olan Müslüm Maqomayevin yaradıcılığı ilə yenidən görüşdük. Azərbaycanın həyatında bu cür hadisələr xalqımızın nə qədər istedadlı və Azərbaycan mədəniyyətinin, incəsənətinin nə qədər zəngin olduğunu bir daha nümayiş etdirir.*

*Bəli, biz bilməliyik, özü də həmişəlik bilməliyik ki, bax, burada dayanan Müslüm Maqomayev nadir və bənzərsiz müğənnidir, Allah vergisidir, ancaq eyni zamanda özünün gərgin, yorulmaq bilməyən zəhməti ilə cilalanmış istedaddır. Müslüm Maqomayevin Azərbaycan səhnəsinə ilk dəfə çıxması bizim xatirimizdədir... O vaxt çoxlarına elə gəlirdi ki, cavan oğlandır da, yaxşı oxuyur. Amma musiqi biliciləri dərhal qiymətləndirdilər ki, yox, bu oğlanın böyük və parlaq gələcəyi var. Xatirimdədir, o vaxt mən maestro Niyazi ilə söhbət edirdim. Şübhəsiz ki, o, Müslümü uşaq yaşlarından tanıyırdı. Mən ona istinad edirəm, çünki o zaman o, mənə və mənimlə bir yerdə olanlara dedi ki, bəli bu, Azərbaycan incəsənətində həqiqətən yeni, parlaq ulduzdur, həm də təkcə Azərbaycan incəsənətində yox.*

*...Sevinirik ki, bizim Azərbaycanın belə övladı, Azərbaycan musiqisinin, Azərbaycan incəsənətinin belə layiqli nümayəndəsi var və getdiyi bütün dünya ölkələrində özünü və bizim mədəniyyətimizi, musiqimizi və xalqımızı şöhrətləndirir.*

*Müslümün xidmətləri çoxdur, ancaq onun “Azərbaycan” mahnısını – özünün və gözəl xanımı Tamara Sinyavskayanın burada əla ifa etdikləri mahnını Müslümün ən böyük xidməti hesab edirəm. Bilirsiniz, böyük incəsənət ustaları bəzən cəmi bir əsər yaradaraq tarixi şəxsiyyətə çevrilirlər. Əgər Müslümün heç nəyi olmasaydı da, mənim fikrimcə, o təkcə “Azərbaycan” mahnısına görə ən yüksək hörmətə, ən böyük ehtirama layiqdir.*

*Mənə elə gəlir ki, Müslüm Maqomayev bizim gözəl şairimiz Nəbi Xəzri ilə birlikdə bu mahnını yazanda onlar yəqin ki, gələcəyə baxmışlar, çünki bu mahnı həqiqətən azad, müstəqil Azərbaycanın himni kimi səslənir...”.*

### 1997-ci il 28 oktyabr

Prezident Sarayında Azərbaycan ədəbiyyatının yaşlı nəslinin nümayəndələri ilə görüşüb.

*“...Sizin, demək olar, hamınızla uzun illərdir ki, şəxsən tanışam... İndi də bir yerdəyik, ancaq tez-tez görüşməyə imkan olmur. Ancaq indi hadisələr məcbur edibdir. Çünki siz növbəti qurultayın ərəfəsindəsiniz.*

*Mən düşünürəm ki, Azərbaycan xalqının müsbət xüsusiyyətlərindən biri də odur ki, mədəniyyətə, ədəbiyyata daim diqqət, qayğı göstərib və hörmət edibdir. Bilmirəm, bəlkə səhv edirəm, ancaq yazıçıya, şairə, mədəniyyət xadiminə bizim Azərbaycandakı kimi hörmət və ehtiram bəlkə də az yerlərdə tapılar. Bunun kökləri var. Çünki bizim ədəbiyyatımız da, mədəniyyətimiz də zəngindir, ədəbiyyatımızı, mədəniyyətimizi və tariximizi zənginləşdirən dahi şəxsiyyətlərimiz də olubdur.*

*Biz məmnun olmalıyıq ki, həyatımızın bu keçid, ağır dövründə də bu münasibətlər dəyişməyibdir. Ola bilər bəzi maddi imkanlar nöqteyi-nəzərindən o qədər deyildir. Ancaq bunlar hamısı keçicidir. Hesab edirəm bizim ədəbiyyatımız, mədəniyyətimiz əsrlər boyu çox ağır sınaqlardan, mərhələlərdən keçərək, yaşadığı kimi, bu gün də bu çətin dövrü birlikdə yaşayıb keçəcəyik.*

*...Mən də hesab edirəm ki, bizim Yazıçılar Birliyinin ən böyük nailiyyəti ondan ibarətdir ki, bu keçid, sınaq dövründən keçibdir, dağılmayıbdır... Adətən, insanlar öz yanında, gözünün qabağında olanı qiymətləndirmir, keçmişdəkini, yaxud uzaqda olanı qiymətləndirir. Mən şübhə etmirəm ki, gələcək nəsillər bu gün burada, bu salonda oturanların hamısını yüksək qiymətləndirəcəklər.*

*Səməd Vurğun 50 yaşında, 40 il bundan əvvəl vəfat edib. Səməd Vurğun bəlkə də heç yaşadığı zaman, yaxud həyatdan gedəndən sonrakı ilk illərdə xalqın məhəbbəti nöqteyi-nəzərindən bu qədər yüksək zirvələrə qaldırılmamışdı, nəinki indi qaldırıldı. Tarixin elə zamanları olur ki, unudur, amma sonra xatirinə salır...”.*

### 1997-ci il 29 oktyabr

Prezident Sarayında Azərbaycan ədəbiyyatının gənc nəslinin nümayəndələri ilə görüşüb.

*“...Dünən Yazıçılar Birliyinin rəhbərləri, yaşlı nəslə mənsub şair və yazıçılarla görüşümüz oldu. Xahiş etdim ki, gənclərlə də görüşək. Bu mənim keçmişdə belə məsələlərə münasibətimlə müəyyən dərəcədə bağlıdır.*

*Əksəriyyətinizlə şəxsən tanış deyiləm. Təəssüflər olsun ki, sizin əsərlərinizi oxuya bilməmişəm. Həqiqəti etiraf etməliyəm. Ancaq yazıçılar nəsli ardıcıl olaraq yaşayıb və inkişaf edibdir. Çox sevindirici haldır ki, bu dövrdə də bizim yazıçılar nəsli yaşayır, yaradır, nəsillər arasında boşluq yoxdur.*

*Mənə dedilər ki, Yazıçılar Birliyinə üzv qəbul olunmaq üçün 100-dən artıq müraciət var. İndi yazıçıların sosial vəziyyətinə qayğı və yaxud maddi imkanlar keçmişə nisbətən çətinləşib. Amma belə bir vəziyyətdə yazıçı və şair olmaq, özünü bu sənətə həsr etmək istəyən gənclər çoxdursa, bu, mədəniyyətimiz və ədəbiyyatımız üçün olduqca sevindirici haldır...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# 80 yaşlı Nağılbaz...

## Xalq rəssamı Arif Hüseynov: "Özümü 40 yaşımdakı kimi hiss edirəm..."

*əvvəli səh. 1-də*

Bu silsilədən əlamətdar yubileyin final sərgisi Azərbaycan Milli İncəsənət Muzeyində açılmışdı. 13-20 oktyabr tarixlərini əhatə edən "Miniatürsayağı" adlı maraqlı sərgi. Rəssam özü hər gün sərgiyə gəlir, ziyarətçilərin fikrini öyrənirdi. Sənətkarla müsahibəmiz də sərgi günlərinin birində alındı...

Qeyd edim ki, nümayiş olunan əl işləri sırasında rəssamın "Simurq quşu", "Göyçək Fatma", Azərbaycan xalq nağılları silsiləsindən "Məlik Məmməd", "Cırtdan", "Torpaq çərşənbəsi" adlı əsərləri yer almışdı. Bəxtimdən isə ziyarətçilərin əksəriyyəti ölkəmizdə qonaq olan turistlər idi. Onlar əsərlərə baxıb texnikası ilə maraqlanır, sırf nağıllar, simvollara görə bir-biri ilə müzakirə edirdilər. Miniatür sənətimizin, nağıllarımızın, adətlərimizin tərənnüm edildiyini deyəndə isə bu nümunələrə yenidən daha maraqla baxırdılar. Tamaşaçıların daha çox marağını cəlb edənlər isə "Dədə Qorqud" və "Novruz" əsərləri idi.

Arif müəllimi, yubileyi və yeni sərgisi münasibətilə təbriklə söhbətimizə başlayırıq.

*– Silsilə sərgilər... Yubileyi bu qaydada qeyd etmək ideyası necə yarandı?*

– Fikirləşirdim ki, ömür vəfa etsə, yubileyi geniş sərgi silsiləsi ilə qeyd edim. Məqsədim bu idi ki, yaradıcılığımda olan müəyyən etapları nümayiş etdirim. Hesabat adına gələndə gördüm ki, mövzu baxımından bir sərgiyə sığmır. Hətta oğlum da dedi ki, bəlkə ayrıca deyil, bir sərgi edəsən. Dedim, alınmır. Hissə-hissə əsərlər bütöv təəssürat yarada bilmir. Buna görə də "Azərbaycan nağılı" adlı ilk sərgim Milli Xalça Muzeyində açıldı. 50-yə yaxın əsərim nümayiş olundu. Təcrübə də göstərdi ki, necə deyərlər, mən düz yoldayam. Niyə Xalça Muzeyi? Çünki nağıllarla xalçanı ayırmaq mümkün deyil.

Daha sonra "Qarabağnamə" silsiləsindən ağ-qara texnikada hazırladığım rəsmlərin sərgisini etdik. Bu rəsmlərdə ölkəmizdəki alban kilsəsi, tarixi yerlərin mənzərələri və tanınmış şəxsiyyətlərin portretləri təsvir olunub. Qarabağın musiqi mədəniyyətini də əks etdirən rəsmləri ingilis dilində məlumatlarla verdim. Musiqi xadimlərini, generallarımızın cizgilərini cavanlaşdırdım. Düşündüm ki, bu əsərlər gələcəkdə dərsliklərdə istifadə oluna bilər. Burada "Arşın mal alan" filmindən də element var. Rəşid Behbudovu təsvir etmişəm. Mərhum dostum Fuad Poladovun oynadığı Qacar obrazına baxdım və məhz onun oynadığı Qacarı təsvir etdim. Bu əsəri Teatr Muzeyinə hədiyyə etmişəm. Hətta bu silsilə ilə bağlı film də çəkildi. Filmin ərsəyə gəlməsində mərhum millət vəkilimiz Qənirə Paşayevanın böyük zəhməti oldu...

*– Arif müəllim, necə oldu miniatür sənətinə müraciət etdiniz?*

– Bu ideya 2006-cı ildə Yaponiyadakı sərgimdən sonra yarandı. Yaponlar cəmiyyət olaraq çox xoşuma gəlir. Onlar ənənəni qoruyaraq müasirləşdirirlər. Tokioda beş gün davam edən sərgimdə oradakı qalereyalar və qədim Kabuki teatrı ilə tanış oldum. "Disneylənd"ə də baş çəkdim. Bir nağılbaz kimi Yaponiyadakı bu məkanla mütləq tanış olmalı idim. Texniki cəhətdən möhtəşəm bir məkandır. Yaponiyadan qayıtdıqdan sonra miniatürlə daha çox məşğul olmağa başladım.

Amma ondan öncə, hələ "Göyərçin" jurnalında işlədiyim vaxtlardan miniatür eksperimentləri edirdim. Biz dünyaya Təbriz miniatür məktəbi ilə maraqlıyıq. Bunu yaddan çıxarmamalıyıq. Təəssüf ki, tarixin sərt dönəmlərində biz ayrı düşdük. XX əsrin 30-cu illərində belə bir təşəbbüs olmuşdu. Salam Salamzadə, Qəzənfər Xalıqov, Əmir Hacıyev kimi rəssamlar miniatür sənətini inkişaf etdirmək istəyirdilər. Ancaq sovet rejimi, yəni sosialist-realizmi cərəyanı imkan vermədi. Hazırda müstəqil ölkənin rəssamlarıyıq, düşündüm ki, biz bu işi davam etdirməliyik.





Bu sahəyə böyük maraq var. Xaricdə də bu işlərə maraq göstərilir. Milli köklə bağlı olan nümunələr dünyaya daha maraqlıdır. Miniatürlə ciddi məşğul olmaq lazımdır. Bu iş, əfsus ki, böyük hərəkata çevrilə bilmir. Bunun üçün dəstək olmalıdır. Çox istəyirəm ki, miniatür əsərlərdən ibarət sərgilər təşkil edilsin. "Miniatür sənəti" 2020-ci ildə Türkiyə, Azərbaycan, İran və Özbəkistanın birgə hazırladığı nominasiya sənədi ilə UNESCO tərəfindən Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilib. Arzum budur ki, Azərbaycanda Beynəlxalq Miniatür Mərkəzi yaradılsın. Əgər bizim dünya şöhrətli Xalça Muzeyimiz, Muğam Mərkəzimiz varsa, niyə də miniatürlə bağlı mərkəzimiz olmasın.

*– Bəs niyə "Miniatürsayağı"?*

– Böyük bəstəkarımız Üzeyir bəyin "Aşıqsayağı"sını dinlədikdən sonra belə qərara gəldim ki, sərgi "miniatürsayağı" adlansın. Bu həm də bir mesajdır. Milli kökümüzə, ənənəmizə qayıdış və sadiqlik mesajı. Biz öz rəssamlıq tariximizi itirməməliyik. Bizim istiqlalımız, Zəfər çalmış dövlətimiz, Ordumuz, sevilən rəhbərimiz var. Mədəniyyət ordusu da bizlərik. Bu sahəni də biz yaşatmalı, qorumalı, təbliğ etməliyik.

*– Davamlı işləyirsiniz. Vaxt darlığı yaşamırsınız ki?*

– Rəssamlar İttifaqında Kitab qrafikası və miniatür bölməsinin sədriyəm. Mənim əsas vəzifəm isə rəssamlıqdır. İş yerim emalatxanamdır. Dövlətimiz sağ olsun, mənə fəxri adlar, təqaüd verib. Bunlar mənə güc verən, enerji verən. Etiraf edim ki, bunlar olmasaydı, bəlkə də mən bu silsilələri yarada bilməzdim. Yaşamaq üçün, maddiyyat üçün daha yüngül və satışa çıxarılan mövzulara müraciət edərdim. Özümü xoşbəxt insan hesab edirəm ki, bu diqqət mənə vaxtında göstərilib. Məni cavanlaşdırıb, mənə ruh verib.

*– Emalatxananızda studiya da var...*

– Gənc yaşlarımda əmək fəaliyyətinə "Göyərçin" jurnalında uşaqlarla başladım. Bu günə kimi də uşaqlarla məşğulam. Heç bir rəssamın emalatxanasında studiya yoxdur. Mənim emalatxanamın bir otağı uşaqlar üçün studiyadır. Sərgilərində onların yaxşı işlərini satın alıram. İstəyirəm özlərinə rahatlıqla rəng ala bilsinlər.

*– Arif müəllim, rəssamlarımızın ölkə daxilində tanınmamaq problemi müşahidə olunur. Bu fikirlə razısınızmı?*

– Dostlarımdan biri silsilənin sonuncu sərgisini hansı səviyyədə keçiriləcəyini soruşanda dedim xalq səviyyəsində. Son sərgiyə xalqımızla, dostlarımla, mənə yaxın olan insanlarla yekun vurmaq istədim. Mən yaradıcılığımda bütün mərhələləri keçmişəm.

> "Rəssamlarımız vətənpərvərlik mövzusuna müraciət etməlidirlər. Şuşanın azad edilməsi özü bir nağıldır. Bu nağılın qəhrəmanları müasirlərimizdir. Biz bu nağılı, bu qəhrəmanlığı həm də sənət vasitəsilə gələcəyə ötürməliyik"

Bu fikri həm də nəyə bağlamaq istəyirəm. Dünyada tanınan rəssamlarımız var ki, onların əsərlərini tanısalar da, özləri haqqında cəmiyyətimiz xəbərsizdir. Ona görə də rəssamlarımızın fərdi sərgilərinin regionlarda keçirilməsi pis olmaz. Orada yaşayan rəssamlara da müsbət təsiri olar. Şamaxıda sərgim zamanı bu maraq və diqqətin şahidi oldum. Həm də əyalətdə zövqü formalaşdırmaq məsələsi də burada önə çəkilməlidir. Məsələn, bölgələrimizdə geniş imkanları olan mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Orada savadlı gənclərimiz çalışır. Lakin onların rəssamlıq sənətimizdən xəbərləri yoxdur. Bu sahəni də təbliğ etməliyik.

*– Bir qədər də nağılbaz olmağınızdan danışaq...*

– Rəhim Məmmədov adlı müəllimim vardı. İndi Türkiyədə yaşayır, 96 yaşı var. Məni "Göyərçin"ə o yolladı. 17 manat tələbə təqaüdü, 25 manat da qonorar alırdım. O zaman üçün yaxşı məbləğ idi. Redaktorumuz Xalidə Hasilova idi. Jurnal 280 min tirajla çap olunurdu. Hər dəfə yeni rəsmlər çəkirdim. İndi çoxları deyir, mən sizin əsərlərlə böyümüşəm. Altı il də Azərbaycan Televiziyasında uşaqlarla "Dərsdən sonra" adlı veriliş apardım. O vaxt məni dəvət edəndə verilişin formatını dəyişib öz üslubumda aparacağımı dedim və rəhbərlik də razılaşdı. Beləliklə, uşaqlarla təkcə rəsmlə yox həm də maarifçiliklə məşğul oldum. Operaya, teatra, muzey və qalereyalara, parklara aparıb orada həm məlumat verir, həm də rəsmlə məşğul olmalarına şərait yaradırdım. Mən nağılları çox sevirəm. Bir dəfə qəzetinizə müsahibədə də bu barədə demişəm. Mənə görə, insanlar nağılları ömürlərində iki dəfə oxumalıdırlar: bir uşaq yaşlarında, bir də mənim indiki yaşımda. Çünki bu yaşda nağılın dadı tamam başqa cür olur. Baxış da dəyişir. Mən Cırtdanı 50 ildir çəkirəm və hər dəfə də tamam fərqli. Cırtdanın "Kim yatmış, kim oyaq" sualındakı fəlsəfə uşaq üçün bir məna verirsə, 80 yaşlı insan üçün tamam başqa məzmun daşıyır. Bu, böyük sualdır...

*– Bildiyim qədər, noyabrda Bakıda keçiriləcək beynəlxalq kitab sərgisində də iştirak edəcəksiniz.*

– Mədəniyyət Nazirliyi sərgi məkanında bizə də stend ayırıb. Müraciətimə müsbət cavab verildiyinə görə, yaradılan şəraitə görə təşəkkür edirəm. Təkcə mənim deyil, Azərbaycan rəssamlarının kitab illüstrasiyaları sərgilənəcək. Bu, bir ilk olacaq.

*– Qarşıda hansı layihələr var?*

– Qarşıda yeni səhifə açacağam. "Dədə Qorqud" mövzusunda silsilə əsərlər. Burada da nümayiş olunan əsər ilkin fraqmentdir. Belə baxanda özüm də "Dədə Qorqud" yaşındayam (gülür). Dastandakı 12 boyun hamısına yeni əsərlər yaradacağam. Bizdə 60-cı illərdə Mikayıl Abdullayev bu mövzuya müraciət edib. Mən isə qrafika üslubunda işləyəcəyəm. Ulu öndər Heydər Əliyevin sərəncamı ilə "Dədə Qorqud" dastanının 1300 illiyinin qeyd olunması bu söz abidəsinə yeni baxışı da ortaya qoydu. Yeri gəlmişkən, onu da deyim ki, TÜRKSOY məni Ankaraya dəvət edib. Orada da yubiley sərgimin keçirilməsi nəzərdə tutulur. Eyni zamanda Türkiyənin Beynəlxalq İncəsənət və Sənət Ustaları Birliyinin (SAKÜDER) Parisdə təşkil edəcəyi sərgidə mənim də iki əsərim nümayiş olunacaq.

*– Arif müəllim, 80 rəqəmi həyatda və yaradıcılıqda necə görünür?*

– Özümü 40 yaşımdakı kimi hiss edirəm. İctimai işlər, yaradıcılıq və s. Bütün bunlarla məşğul olmağa imkan varsa, demək, hər şey gözəldir. Ən əsas da nəvəm Dilbərə həsr etdiyim silsilədən 10-nu hazırdır, qalıb səkkizi. Onu da işləmək niyyətindəyəm. Hər yaşın öz rəngi var. Amma biz rəssamların həyat rəngi palitradır. Bizim gəncliyimizlə indiki gənclik arasında fərq çoxdur. Sənəti sevmək lazımdır. Təkcə rəssamlıqda deyil, ədəbiyyatda, musiqidə, sənətdə də sanki meyarlar itib. Hesab edirəm ki, bu, müəyyən zaman kəsiyində belə olacaq. Müstəqil Azərbaycanın təsviri sənəti bu anlamda öz yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Sənətin də sərhədi var. Gənc rəssamlara diqqət və qayğı ilə yanaşmaq lazımdır. Biz ötən əsrdə dahilər yetişdirmişik və yeni dahilərimiz yaranacaq...

*– Şanlı Zəfərimiz təsviri sənətdə necə əks olunur?*

– Bugünkü Azərbaycan tarixini mütləq təsviri sənətdə göstərməliyik. Üzeyir bəy, Əli bəy Hüseynzadə, Mirzə Cəlil, Sabir dövrün aynası idilər. Onlar cəmiyyətin məfkurəsini formalaşdırır, maarifçiliklə məşğul idilər. Bu gün biz onlara minnətdarıq. Müasir rəssamlarımız vətənpərvərlik mövzusuna müraciət etməlidirlər. Bunun üçün dəstək və gəncləri yönəltmək lazımdır. Şuşanın azad edilməsi özü bir nağıldır. Müasir nağıldır. Bu nağılın qəhrəmanları müasirlərimizdir. Biz bu nağılı, bu qəhrəmanlığı həm də sənət vasitəsilə gələcəyə ötürməliyik. Ağdam teatrı binasının qalıqlarını görüb bir əsər yaratdım. Rəssamlarımız işğaldan azad olunmuş ərazilərə səfər edib təəssüratlanmalıdırlar. Bu böyük bir sistem və siyasətdir. Həm də əmək tələb edir. Ümumiyyətlə, müstəqillik illərinin təsviri sənəti ilə bağlı bazamız azdır. Bu bazanı zənginləşdirməliyik.

*– Maraqlı müsahibəyə görə təşəkkür edir, "Mədəniyyət" qəzetinin kollektivi adından sizə cansağlığı, yaradıcılıq uğurları ilə zəngin fərəhli illər arzulayırıq.*

**Lalə Azəri**

---

Azərbaycan teatrı – 150



# TEATR BİNALARI:
## səhnə sənətinə doğma ocaqlar

I yazı

Teatr asılqandan başlayır. Bu məşhur ifadəni kim bilmir ki? Bəs asılqan harada olur? Təbii ki, teatr binasında. Yox, məqsədimiz teatr qarderobunun əhəmiyyətindən bəhs etmək deyil. Mövzumuz başqadır. Bakının memarlıq incilərindən sayılan teatr binalarının tarixindən söhbət etmək istəyirik.

### Bir eşq macərası, yoxsa gəlirli iş?

Bakıdakı Opera və Balet Teatrının binasının tikilməsinin əfsanəyə və yaxud məhəbbət nağılına oxşar tarixçəsini yəqin eşitmisiniz. Belə nəql edilir ki, XX əsrin əvvəlində, 1910-cu ildə Rusiyanın məşhur opera müğənnisi Antonina Nejdanova Bakıya gəlir. Gəlir... və çıxış etmək üçün normal şəraiti olan teatr binası tapmır. Vokalçı xanımın şərəfinə verilən ziyafətdə ondan bir də Bakıya nə zaman təşrif buyuracağını xəbər alanda primadonna küskün və qəti cavabını verir ki, heç vaxt. Səbəbi? Bu şəhərdə opera səhnəsi yoxdursa, gəlməyin nə mənası var? Mən sirk, ya da kazino səhnəsində çıxış etməyə alışmamışam. Guya bu cavab da Bakı milyonçularının möhkəm xətrinə dəyir, xüsusən də xanıma bir könüldən min könülə aşiq olmuş milyonçu Mayılov qardaşlarından biri söz verir ki, bir ilə xanımın səsinə, görkəminə yaraşan teatr binası tikdirəcək.

Nə qədər romantik əhvalata oxşasa da, həqiqət başqadır. Ən azı o səbəbdən ki, Antonina Nejdanova heç vaxt Bakıda olmayıb.

Həqiqət isə bunu deyir ki, soyadındakı "-yan" sonluğunu daha asan iş qurmaq rahatlığına görə rus "-ov"una güzəştə getmiş milyonçu Mailyan qardaşları, sadəcə, neft bumu və sürətli urbanizasiya dövrü yaşayan Bakının nəbzini tutmuşdular. Varlı insanların artdığı, üstəlik, Avropadan iş adamlarını cəlb edən Bakıda opera teatrının tikilməsi milyonçu üçün neft qazancı ilə müqayisə olunmasa da, hər halda gəlir mənbəyinə çevrilə bilərdi.

### Gerçək faktlar, bir də şayiələr

Rusiyada nəşr olunan "Rampa və həyat" jurnalının 19 aprel 1909-cu il tarixli 16-cı sayında belə bir xəbər verilib: "Bakı. Yerli milyonçuların nümayəndəsi Milanın "Dal Verme" teatrına oxşayan yeni möhtəşəm opera teatrının layihəsini sifariş vermək üçün Peterburqa yola düşüb... Söz gəzir ki, onun tikintisinə yarım milyon rubldan çox pul lazım gələcək". Lakin nə nümayəndənin kimliyi, nə də məchul təmsilçinin Peterburqdan hansı xəbərlə döndüyü barədə məlumat var. Deyəsən, bu da şayiə imiş...

Bir il sonra, 2 may 1910-cu il tarixli "Kaspi" qəzetində bir məlumat dərc olunur. Mayılov qardaşları Ticarət (Torqovı) küçəsi 399-cu məhəllədəki torpaq sahəsində teatr üçün bina tikilməsi barədə şəhər rəisinə layihə təqdim ediblər. Renessans üslubunda tikiləcək binanın əsas giriş və çıxış qapısının Ticarət küçəsindən olacağı deyilir. Binanın digər özəllikləri ilə yanaşı, ilin isti aylarında kiçik buzdoğrayan maşının işlədiləcəyi, havanın bu maşında soyudularaq teatrın içinə ötürüləcəyi də planlaşdırılır...

Bina, dövrün inşaat texnikasının səviyyəsini nəzərə alsaq, rekord müddətdə – on aya inşa olunur. Tikintidə iş üç növbədə aparılırmış. Hər növbədə də 200 fəhlə çalışırmış. Gecələr tikinti meydanını güclü projektorlar işıqlandırırmış.

Opera teatrı binasının istifadəyə verilməsi münasibəti ilə "Bakines" qəzeti yazırdı: "Biz memar Bayevin enerjisi, istedadı və tükənməz əməksevərliyi qarşısında baş əyirik. Həqiqətən də, heç də hər memar yeddi-səkkiz ay ərzində bomboş ərazidə belə dəbdəbəli, möhtəşəm bina ucalda bilməzdi. Bu opera teatrı Bakı üçün misilsiz bəxşişdir. Çox fərqli əhalisi olan belə böyük şəhər üçün təkcə Tağıyev teatrı kifayət deyil...".

### Tikintiyə son, sənətə davam

"Mayılov qardaşlarının böyük opera teatrı" adı verilmiş yeni teatr 1911-ci il fevralın 28-də pərdələrini açdı. Teatrın səhnəsində ilk çıxış edən truppa anterprenyor, indiki dillə desək, prodüser M.P.Xryukovun "Russkaya opera" kollektivi olur. Açılışda Modest Musorqskinin "Boris Qodunov" operası göstərilir.

1912-ci ildə Mayılov qardaşları teatr binasını 19 min rubla anterprenyor Mussuriyə icarəyə verdilər. Yalnız 1916-cı ildə Bakıda daimi çalışan musiqili teatr fəaliyyətə başladı. Anterprenyor P.İ.Amiraqonun opera truppası bu binada yerləşdi və rus, Avropa bəstəkarlarının opera və operettalarını davamlı oynamağa başladı.

Yeni, bolşevik hökumətinin "Teatrlar, kino və muzeylərin milliləşdirilməsi haqqında" 17 may 1920-ci il tarixli ilk dekretindən sonra Bakıdakı bütün teatrlar hökumətin sərəncamına keçdi və bu binada fəaliyyət göstərən rus operası




Azərbaycan Dövlət Opera və Balet Teatrı adlanmağa başladı. Yalnız 1925-ci ildə Azərbaycan opera truppası dram teatrından ayrılaraq buradakı rus truppası ilə birləşdirildi. Beləcə, Azərbaycan bəstəkarlarının milli operaları bu binada müntəzəm nümayiş məkanı qazandı.

Binaya gəlincə, teatrda ilk rekonstruksiya işləri 1938-ci ildə görülüb. İkinci dəfə bərpa işlərinə 1982-ci ildə başlansa da, qəfil baş verən güclü yanğın (belə bir fərziyə var ki, bina qəsdən onu tikmiş milyonçu Mayılov qardaşlarının müasir soydaşları tərəfindən yandırılıbmış) səbəbindən bərpa işləri 1987-ci ilədək uzandı.

Budur, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası yenə bərpaya bağlıdır. Tam məlumatımız olmasa da, Bakının mərkəzində İtaliyanın bir parçasını xatırladan incə və möhtəşəm, bir əsrdən çoxdur musiqi zövqümüzü cilalamağa məşğul olan sənətkarların çalışdığı, Azərbaycan paytaxtına təşrif buyuran hər kəsi öz gözəlliyi və kollektivinin ustalığı ilə heyrətləndirən teatr daha gözəl görkəmdə və daha mükəmməl imkanlarla yenidən öz tamaşaçılarına qovuşacaq.

***

Biz niyə ilk növbədə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binasının inşa tarixçəsini vərəqlədik? Birinci və ən mühüm səbəb odur ki, bu, Bakıdakı teatr binaları arasında yeganə tikilidir ki, məhz musiqili teatr tamaşalarının göstərilməsi üçün nəzərdə tutulub, tarixi boyunca yalnız opera və balet sənətçilərinə xidmət edib.

Digər səbəbi anlatmaq üçün kiçik tarixi ekskurs etmək lazım gələcək. Sirr deyil ki, inqilaba (1917) qədər Bakıdakı zəngin insanların arasında ermənilərin sayı az olmayıb. Və bir gün bir qrup azərbaycanlı zəngin şəxs onları narahat edən məsələyə aydınlıq gətirmək, məsləhət almaq üçün Hacı Zeynalabdin Tağıyevin yanına gəlirlər. Deyirlər ki, ay Hacı, nəsə eləmək lazımdır, yoxsa ermənilər Bakıda hamımızdan daha çox mülk sahibi olacaqlar. Hacı da özünəməxsus uzaqgörənliklə yol göstərir: mane olmayın, qoy tiksinlər, gedəndə binaları özləri ilə aparmayacaqlar.

Gedənlər gedib, bu tikili isə indiyədək olduğu kimi, bundan sonra da hələ neçə il Azərbaycan incəsənətinə xidmət edəcək...

Yeri gəlmişkən, paytaxtın Nizami küçəsi 9 ünvanında yerləşən tikili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 132 nömrəli, 02.08.2001-ci il tarixli Qərarı ilə ölkə əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına götürülüb.

**Gülcahan Mirməmməd**

# "Bu kitabla Farizin vəsiyyətini yerinə yetirmiş oldum..."

Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə başa çatan Vətən müharibəsi şəhidləri barədə oxuculara məlumat verməyə davam edirik. Bu dəfə 44 günlük müharibənin şəhid çavuşu Fariz Həsənov haqqında söz açırıq.



Fariz Şahin oğlu Həsənov 1987-ci il fevralın 12-də Ağstafa rayonunun Dağ Kəsəmən kəndində anadan olub. Kənddə 1 nömrəli tam orta məktəbi bitirib. 2005-2006-cı illərdə Xüsusi Dövlət Mühafizə Xidmətinin (XDMX) Milli Qvardiyası sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2008-ci ildə isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordu sıralarına qayıdıb.

2020-ci ilin Vətən müharibəsində döyüşlərdə igidlik göstərib. Oktyabrın 13-də Füzuli istiqamətində döyüş zamanı şəhid olub. Doğulduğu Dağ Kəsəmən kəndində torpağa tapşırılıb. İki övladı yadigar qalıb.

Həyat yoldaşı Əzizə Həsənova deyir ki, tale Farizi onun qarşısına çox ağır günlərində çıxarmışdı: "Evin tək övladı idim. Anam, iki il sonra da atam dünyasını dəyişdi. Bu, çox ağır bir sınaq idi. Farizin dostu mənim rəfiqəmlə evli idi. Dostlarımız sayəsində tanış olduq. Sonra evləndik. Səkkiz il xoşbəxt yaşadıq. Bu 8 ildə onunla 80 il yaşamış kimi bir ömrümüz oldu... Bir qızımız, bir oğlumuz var – Ruslan və Sevinc. Fariz şəhid olandan sonra məni həyata bağlayan onlar oldu. Düşündüm ki, uşaqların xatrinə güclü olmalıyam. Onun yadigarlarını atalarına layiq şəkildə böyütməliyəm. Mənim bütün ömrüm ona həsr olunub. Hər addımımda, hər anımda onu yanımda hiss edirəm. Fariz indi də mənə sağlığında olduğu qədər güc verir, ruh verir. Şəhid xanımı olaraq fəxr edirəm ki, seçilmiş bir insanın həyat yoldaşı olmuşam".

Əzizə xanım Farizin 2016-cı ilin Aprel döyüşlərində də iştirak etdiyini bildirir: "Həmin döyüşlərdə göstərdiyi şücaətə görə fəxri fərman və medallarla təltif olunmuşdu. Döyüş yoldaşları onun cəsur bir insan olduğunu deyirdilər. Fariz həm həyat yoldaşı, həm də ata kimi çox həssas, ürəyiyumşaq insan idi".

Əzizə Həsənova 2021-ci ildən Odlar Yurdu Universitetində ali təhsil alır: "Şəhid xanımı olaraq həm sevincli, həm də kədərliyəm. Tələbə olarkən hər kəs sevinir. Kədərli olmağımın səbəbi qəhrəmanımın bu sevinci mi görməməsidir. Fariz ali təhsil almağımı və təhsili övladlarıma aşılamağımı çox istəyirdi. Övladlarımız doyunca ata çörəyi yeyə bilmədilər. Ancaq əlimdən gələni edəcəyəm ki, onlar doyunca ana çörəyi yesinlər".

Əzizə xanım qəhrəman həyat yoldaşının adını qəlbində yaşatdığı kimi, ötən il işıq üzü görən "Sevən qəlbin fəryadı" adlı kitabını da ona həsr edib. Kitabda müharibənin yaratdığı acılar, eyni zamanda Qələbədən doğan qürur, vətənpərvərlik ruhunun gənclərə aşılanması, ailə və milli-mənəvi dəyərlər, ən əsası, bir şəhid xanımının bu ağır iztirablara rəğmən ayaqda dura bilməyinin vacibliyi və mümkünlüyü vurğulanıb.

Müəllif özü kitab barədə belə deyir: "Mən sadə, qapalı bir həyat keçirən insan olmuşam. Yazarlığa meylim yox idi. Fariz həmişə deyərdi ki, ömrümüzdən keçən gözəl xatirələri yaz saxla, vaxt gələr balalarımız oxuyar. O, şəhid olandan sonra bu dedikləri yadıma düşdü. Fikirləşdim ki, mən onun arzusunu həyata keçirməliyəm. Bu kitabı yazmaqla Farizin vəsiyyətini yerinə yetirmiş oldum. Mənim üçün çox qürurvericidir ki, təəssüratlarımı, hiss və duyğularımı, ən əsası, sevgimi həkk etdiyim kitabı oxucularla bölüşdüm. İstərdim ki, bu kitab əsasında film də çəkilsin. Bir hərbçinin ömür yolunu işıqlandıran film...".

Qeyd edək ki, Fariz Həsənov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Ruhu şad olsun.

**Nurəddin**

# Şöhrəti hüdudları aşan...

*"Qurban Pirimovun tarı sanki xalqımızın ürəyinin atəşindən yaranmışdı"*

Tar ifaçılıq sənətimizin inkişafı və təbliğində əvəzsiz xidmətləri olan sənətkarlardan biri də Xalq artisti Qurban Primovdur. Görkəmli tarzən uzun illər ustad xanəndə Cabbar Qaryağdıoğlunun muğam üçlüyündə fəaliyyət göstərib, Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasının ilk tamaşasında orkestrin solisti olub. İfaçı kimi səs-sorağı Avropayadək yayılıb...



Qurban Baxşəli oğlu Pirimov 30 oktyabr 1880-ci ildə Şuşa qəzasının Abdal-Gülablı kəndində (indiki Ağdam rayonunun Gülablı kəndi) dünyaya göz açıb. Əslən XVIII əsrin adlı-sanlı sənətkarı Aşıq Valehin şəcərəsindən olub. Baxşəli kişi özü də saz ifaçısı olub. Söz-sənət mühitində böyüyən Qurban erkən çağlardan musiqiyə maraq göstərir. Saz, balaban, nağara, zurna kimi çalğı alətlərində ifa etməyi öyrənir.

Oğlunun istedadlı gənc olduğunu görən Baxşəli kişi onu Şuşa şəhərinə aparır. Tarzən Mirzə Sadıqla (Sadıqcan) görüşür. O, Qurbanın ifasına, musiqi duyumuna diqqət yetirir və bəyənir. Qurban ustadından tar ifaçılığının sirlərini mükəmməl öyrənir. Gənc ikən Qarabağda tar ifaçısı kimi tanınır. 1903-cü ildən musiqi məclislərində xanəndə İslam Abdullayevi müşayiət edir, el şənliklərinə qatılır. 1905-ci ildə Gəncədə toy şənliklərindən birində Qurban İslam Abdullayevin vasitəsilə Cabbar Qaryağdıoğlu ilə tanış olur. Xanəndə sonralar həmin görüşü belə xatırlayır: "Qurban İslam ilə bizim görüşümüzə gəlmişdi. Mən Qurbana bir qədər tar çaldırdım. Onun gözəl çaldığını gördüm. İslamın razılığı ilə onu özümlə Bakıya gətirdim".

Görkəmli xanəndə mükəmməl ifası ilə tanınan və sevilən gənc Qurbanı yaratdığı üçlüyə qəbul edir. Bir müddət sonra üçlüyün səs-sorağı Qafqaza və onun hüdudlarından kənara yayılır. İyirmi ilə yaxın fəaliyyət göstərən üçlük Cənubi Qafqaz və Orta Asiyanın şəhərlərində, Kiyev və Moskva, İranda qastrol səfərlərində olur. İfa etdiyi muğam əsərləri 1906-1916-cı illərdə Riqa, Varşava və Kiyevdə səsyazma şirkətləri tərəfindən qrammofon vallarına yazılır.

Görkəmli tarzən milli opera sənətinin yaranmasında da yaxından iştirak edir. Əsl dost kimi dahi bəstəkar Üzeyir Hacıbəyliyə böyük sənət yollarında mənəvi dəstək olur. Araşdırmalarda qeyd edilir ki, 12 yanvar 1908-ci ildə Tağıyev teatrında ilk nümayişi olan "Leyli və Məcnun" operasının tamaşasına hazırlıq zamanı bəzi çətinliklər yaranır.

Musiqişünas Elmira Abbasova "Qurban Pirimov" adlı kitabında bu barədə yazır: "Qurban Pirimov orkestrdə çalan musiqiçilər kimi dəvət olunmuş tarzənlər qrupuna rəhbərlik etməli idi. Lakin Üzeyir Hacıbəyovun xatırladığı kimi, "onlarda hansısa melodiyanın ifası ilə bağlı fikir ayrılıqları yarandı. Bu mübahisə o qədər ciddi oldu ki, operanın ilk tamaşasına Qurban Pirimov istisna olmaqla, tarzənlərdən heç biri gəlmədi". Beləliklə, Q.Pirimov Azərbaycanda yaranmış musiqi teatrının tarixinə düşdü".

Araşdırmalarda o da qeyd edilir ki, görkəmli bəstəkarların bir sıra məşhur əsərləri Q.Pirimovun bənzərsiz ifasının təsirindən yaranıb. Çünki o, məharətlə ifa etdiyi muğamlarla qəlb və könüllərə yol açıb, bənzərsiz ifası ilə bir orkestrin işini görüb.

Bəstəkar Reynqold Qliyer 1934-cü ildə səhnəyə qoyulan "Şahsənəm" operasının ən gözəl leytmotivlərini Q.Pirimovun "Arazbarı" və "Qarabağ şikəstəsi" çalğısından ilhamlanaraq yaradıb. Həmçinin Üzeyir Hacıbəyli özünün şah əsəri "Koroğlu", Müslüm Maqomayev isə "Nərgiz" və "Şah İsmayıl" operalarında bir çox musiqi parçalarını onun ifasına uyğun bəstələyiblər. Sonralar bəstəkar Fikrət Əmirov da "Şur" və "Kürd-ovşarı" simfonik muğamları üzərində işləyərkən Q.Pirimovun köməyinə müraciət edib.

Böyük bəstəkar Qara Qarayev isə Q.Pirimovun sənətini belə səciyyələndirib: "Onun tarı sanki adi taxtadan və sümükdən düzəldilmiş bir alət deyil, xalqımızın ürəyinin atəşindən yaranmışdı. Bu qocaman sənətkarın ifasına həyəcansız qulaq asmaq mümkün deyildi".

Ustad tarzən uzun illər müəllim kimi də fəaliyyət göstərib. 1925-ci ildə Ü.Hacıbəylinin rəhbərliyi ilə muğam proqramının hazırlanmasında iştirak edib. Onun Hacı Məmmədov, Məmmədağa Muradov, Həbib Bayramov, Zərif Qayıbov, Əliağa Quliyev, Sərvər İbrahimov kimi Azərbaycan tar ifaçılığı məktəbinin görkəmli nümayəndələrinin yetişməsində mühüm xidmətləri var.

Yaradıcılığının ilk illərindən milli musiqinin inkişafına töhfələr verən sənətkarın əməyi yüksək qiymətləndirilib. 1929-cu ildə "Əməkdar artist", 1931-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülüb.

Mədəniyyət tariximizdə silinməz izlər qoyan Qurban Pirimov 29 avqust 1965-ci ildə Bakıda vəfat edib, I Fəxri xiyabanda dəfn olunub.

**S.Fərəcov**

# Musiqişünas ömrünə yazılanlar

Yaradıcılıq yüksək bacarıqdır və fədakarlıq tələb edir. Bu fədakarlıq yaradıcı insanın işinə, sənətinə məhəbbətindən irəli gəlir. Məhz buna görə daim yeni mövzular axtarışındadır. Bunu elmi yaradıcılıqla məşğul olanlara da aid etmək olar. Belə simalardan biri haqda söhbət açmaq istərdik.



Hüseynova Sevda Əli qızı 1963-cü il oktyabrın 29-da Gürcüstanın Bolnisi rayonunda anadan olub. Bakıda, 158 saylı orta ümumtəhsil məktəbində oxuyub, eyni zamanda 22 saylı Uşaq musiqi məktəbinin fortepiano sinfində təhsil alıb. 1983-cü ildə A.Zeynallı adına Bakı Orta-İxtisas Musiqi Məktəbini Musiqi nəzəriyyəsi bölməsi üzrə fərqlənmə diplomu ilə bitirib.

Ali təhsilini Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasında (indiki BMA) alaraq musiqişünaslıq ixtisasına yiyələnib. "Musiqi folklorunun Aqşin Əlizadənin simfoniyalarının melodikasına təsiri" mövzusunda diplom işini müvəffəqiyyətlə müdafiə edib. Burada onun elmi rəhbəri Gövhər Hüseynovanın əməyini qeyd etməliyik. Əlbəttə, hər bir tələbə müəlliminə olan mənəvi borcunu əməli işində, fəaliyyətində əks etdirməlidir. Sevda xanım da müəlliminin adını fəaliyyətində yaşadır.

Əmək fəaliyyətinə 1988-ci ildə başlayıb. Teatr Xadimləri İttifaqında baş məsləhətçi, Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) məsləhətçi, daha sonra 1996-2015-ci illərdə Bakı şəhəri 37 saylı Uşaq musiqi məktəbinin Nəzəriyyə şöbəsinin müəllimi kimi pedaqoji fəaliyyət göstərib. 2011-ci ildən bu günədək ABİ-də baş məsləhətçi vəzifəsində çalışır.

1999-2002-ci illərdə ABİ-nin təsis etdiyi "Musiqi dünyası" jurnalında fəaliyyət göstərib. Eyni zamanda Azərbaycan Televiziyasının "Səhər" informasiya proqramı üçün Azərbaycan bəstəkarları və musiqişünasları haqqında məqalələr hazırlayıb. "Azərbaycan bəstəkarları və musiqişünasları" layihəsi üzrə Mədəniyyət Nazirliyi tərəfindən nəşr olunmuş "Bəstəkar Faiq Nağıyev", "Bəstəkar Ədviyyə Rəhmətova", ABİ-nın 1990-2001, 2002-2012 və 2013-2019 "Məlumat kitabçaları"nın tərtibçilərindən biri və redaktorudur.

2007-ci ildən Bəstəkarlar İttifaqının üzvü olan Sevda Hüseynova mütəmadi olaraq dövri mətbuatda və müxtəlif elmi jurnallarda elmi-publisistik məqalələr və resenziyalarla çıxışlar edir. Müxtəlif mövzularda, o cümlədən ayrı-ayrı bəstəkarların yaradıcılığı ilə bağlı onlarla yazısı dərc olunub.

Sevda Hüseynova ABİ-nin keçirdiyi respublika və beynəlxalq səviyyəli festival və müsabiqələrin proqramlarının, bukletlərinin hazırlanmasında, eləcə də tədbirlərin təşkilatçısı, aparıcısı kimi fəal iştirak edir. 2011-ci ildə "İpək Yolu" II Beynəlxalq Musiqi Festivalının koordinatoru olub.

Musiqişünas alim ölkə başçısının müvafiq sərəncamı ilə 2019-cu ildə "Tərəqqi" medalı ilə təltif olunub.

Sevda xanımı yubiley yaşı münasibətilə təbrik edir, ona bundan sonrakı həyat və sənət yolunda da uğurlar arzulayırıq.

**Fidan Nəsirova-Əhmədova**
**BMA-nın elmi-tədqiqat laboratoriyasının əməkdaşı**

## Xatirə təqvimi — 27–31 oktyabr

### Azərbaycan

**27 oktyabr 1900** – Azərbaycanın və SSRİ-nin Xalq artisti, rejissor, aktyor Mixail İvanoviç Jarov (1900-1981) Moskvada doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrında (1933-1937) çalışıb.

**27 oktyabr 1931** – Xalq artisti, opera müğənnisi (bariton) Mürsəl Tağı oğlu Bədirov (1931 – 26.2.2003) Dərbənd şəhərində doğulub. 1956-cı ildən Akademik Opera və Balet Teatrının solisti olub.

**27 oktyabr 1931** – Əməkdar elm xadimi, filosof alim, professor Cəmil Teymur oğlu Əhmədli (1931-2010) Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olub.

**27 oktyabr 1932** – Bəstəkar, Azərbaycan musiqi tarixində ilk romansların müəllifi Asəf Zeynalabdin oğlu Zeynallı (5.4.1909 – 1932) vəfat edib. Tamaşalara musiqi bəstələyib, Azərbaycanda uşaq musiqisi repertuarının əsasını qoyub, xalq mahnılarını nota alıb.

**27 oktyabr 1936** – Xalq artisti, tanınmış diktor Sabir Məmməd oğlu Ələsgərov (1936 – 20.11.2020) Tiflisdə doğulub. Azərbaycan Radiosu və Televiziyasının baş diktoru olub.

**27 oktyabr 1937** – İctimai xadim, diplomat, publisist Ramiz Abutalıb oğlu Abutalıbov (1937 – 1.1.2022) anadan olub. 1970-80-ci illərdə SSRİ-nin UNESCO-dakı nümayəndəliyində çalışıb, 1992-2004-cü illərdə Azərbaycanın təşkilatda daimi nümayəndəsi olub.

**27 oktyabr 2001** – Prezident Heydər Əliyev Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı, ictimai xadim Mirzə İbrahimovun 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**27 oktyabr 2006** – Prezident İlham Əliyev görkəmli xalçaçı-rəssam Lətif Kərimovun 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**27 oktyabr 2015** – Prezident İlham Əliyev Şəki şəhərində Xalq şairi Bəxtiyar Vahabzadənin ev-muzeyinin yaradılması haqqında sərəncam imzalayıb. Ev-muzeyi 2018-ci il avqustun 31-də açılıb.

**27 oktyabr 2021** – Əməkdar rəssam, heykəltaraş Zeynalabdin Əli oğlu İsgəndərov (26.7.1949 – 2021) vəfat edib. Görkəmli şəxsiyyətlərin qəbirüstü abidələrini, barelyeflərini hazırlayıb.

**28 oktyabr 1911** – Xalq yazıçısı, dramaturq, Sosialist Əməyi Qəhrəmanı Mirzə Əjdər oğlu İbrahimov (1911 – 17.12.1993) Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olub. Əsərləri: "Gələcək gün", "Böyük dayaq" (romanlar), "Həyat", "Kəndçi qızı" (pyeslər) və s. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri (1954-1958) olub, Yazıçılar Birliyinə rəhbərlik edib.

**28 oktyabr 1927** – Tanınmış tarzən Şirin Məşədi Hüseyn oğlu Axundov (1878 –1927) vəfat edib. Bir çox ustad xanəndələri müşayiət edib.

**28 oktyabr 1980** – Bakıda yazıçıların Ümumittifaq yaradıcılıq konfransı başlayıb. Sovet İttifaqının 60-dan çox xalqının ədəbiyyat xadimlərinin qatıldığı konfrans 31 oktyabradək davam edib.

**29 oktyabr 1935** – Şair-dramaturq Əvəz Mahmud Lələdağ (Əvəz Cəlal oğlu Mahmudov) Zəngəzur mahalının Ağdü kəndində anadan olub. Kitabları: "Dağlar marala qaldı", "Ömür payı".

**29 oktyabr 1941** – Xalq artisti Ağaxan Əli oğlu Salmanlı (1941 – 29.2.2020) Bakıda anadan olub. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub. Televiziya tamaşalarında çəkilib. Uşaqlar üçün pyeslərin müəllifidir, bir neçə tamaşaya quruluş verib.

**29 oktyabr 1949** – Tanınmış aktyor Şahin Cəbrayılov (1949 – 5.9.2007) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə ("Yol əhvalatı", "Qızıl uçurum") çəkilib.

**29 oktyabr 1996** – Naxçıvanda Hüseyn Cavidin məqbərəsinin açılış mərasimi keçirilib. Prezident Heydər Əliyevin təşəbbüsü ilə yaradılan məqbərənin layihə müəllifi Əməkdar memar Rasim Əliyev, heykəltaraşı Xalq rəssamı Ömər Eldarovdur.

**29 oktyabr 2013** – Prezident İlham Əliyev Salyan rayonunda Muğan arxeoloji mədəniyyətinə aid Babazanlı abidələrinin 2800 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Qədim yaşayış məskəninin 2800 illiyi ilə bağlı mərasim Mədəniyyət və Turizm Nazirliyi, AMEA və rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə 2014-cü il oktyabrın 24-də keçirildi.

**29 oktyabr 2004** – Tanınmış rəssam, animator, kitab illüstratoru Nazim Məmmədov (1934 –2004) vəfat edib.

**30 oktyabr 1880** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (1880 – 29.8.1965) Şuşa qəzasının Abdal-Gülablı (indiki Ağdam rayonu) kəndində doğulub.

**30 oktyabr 1907** – Əməkdar mədəniyyət işçisi, jurnalist, tərcüməçi Adil Əladdin oğlu Əfəndiyev (1907-1973) Bakıda doğulub. Rusca-azərbaycanca üççildlik lüğətin tərtibçisidir, rus və Avropa yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**30 oktyabr 1928** – Tanınmış sənətşünas alim, akademik Rasim Səməd oğlu Əfəndiyev (1928 – 13.2.2010) Qazaxda doğulub. "Azərbaycan dekorativ-tətbiqi sənəti", "Azərbaycanın bəzək sənəti", "Azərbaycan daş plastikası" kitablarının müəllifidir. AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib.

**30 oktyabr 1992** – Əməkdar incəsənət xadimi, şair Tofiq Mütəllim oğlu Mütəllibov (13.4.1929 – 1992) vəfat edib. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**30 oktyabr 2005** – Xalq artisti, müğənni, bəstəkar Məmmədbağır Bağırzadə (21.7.1950 – 2005) vəfat edib.

**31 oktyabr 1910** – Əməkdar artist Ağa Əsgər oğlu Məmmədov (1910-1973) Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Tiflis Azərbaycan Dram, Gəncə Dövlət Dram teatrlarının aktyoru olub.

**31 oktyabr 2012** – Bakıda görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün abidəsinin (heykəltaraş: Akif Əsgərov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**31 oktyabr 2018** – Prezident İlham Əliyev Şəki şəhərinin tarixi hissəsinin qorunması ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

### Dünya

**27 oktyabr 1449** – Böyük türk (özbək) mütəfəkkiri, astronom və riyaziyyatçı, dövlət xadimi Məhəmməd Tarağay Uluqbəy (22.3.1394 – 1449) vəfat edib.

**27 oktyabr 1782** – İtalyan bəstəkarı, məşhur skripkaçı Nikkolo Paqanini (Niccolo Paganini; 1782 – 27.5.1840) anadan olub.

**27 oktyabr 1883** – Litva ədəbiyyatında romantizmin görkəmli nümayəndəsi, şair və dramaturq Mikolas Vaytkus (Mykolas Vaitkus; 1883–1973) anadan olub.

**28 oktyabr** Beynəlxalq Animasiya Günüdür (International Animation Day). 1892-ci ilin 28 oktyabrında fransalı ixtiraçı rəssam Emil Reno ekranda ilk animasiya lentini nümayiş etdirib.

**28 oktyabr 1936** – Məşhur ukraynalı teatr rejissoru, Ukraynanın və Rusiyanın Xalq artisti Roman Qriqoryeviç Vityuk (1936 – 17.11.2020) anadan olub.

**28 oktyabr 1957** – Türkiyə müğənnisi, bəstəkar Əhməd Qaya (1957 – 16.11.2000) Malatyada anadan olub.

**29 oktyabr 1863** – Beynəlxalq Qırmızı Xaç Komitəsinin (International Committee of the Red Cross - ICRC) yarandığı gündür. İsveçrəli xeyriyyəçi və ictimai xadim Anri Dünan (Jean Henri Dunant; 1828-1910) tərəfindən təsis edilən humanitar təşkilat silahlı münaqişələrdən zərər çəkənlərə yardım göstərir.

**30 oktyabr 1751** – İngilis-irland yazıçısı Riçard Brinsli Şeridan (Richard Brinsley Sheridan; 1751-1816) anadan olub.

**30 oktyabr 1871** – Fransız şairi, yazıçı, filosof Pol Valeri (Paul Valery – Ambroise Paul Toussaint Jules Valery; 1871-1945) anadan olub.

**31 oktyabr 1922** – SSRİ-nin Xalq artisti Anatoli Papanov (1922 - 5.8.1987) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Avtomobildən qorun", "Brilyant əl", "12 stul" və s.

**31 oktyabr 1993** – İtalyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 20.1.1920 – 1993) vəfat edib. Beş dəfə "Oskar" mükafatına (o cümlədən fəxri "Oskar") layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım" və s.

**Hazırladı: V.Orxan**

# Kiyevdə Müslüm Maqomayevin abidəsi ziyarət edilib

Dünyaca məşhur müğənni və bəstəkar, Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Müslüm Maqomayevin (1942-2008) vəfatının 15-ci ildönümündə Ukraynanın paytaxtı Kiyevdəki abidəsi ziyarət edilib.



Oktyabrın 25-də Azərbaycanın Ukraynadakı Səfirliyinin əməkdaşları Müslüm Maqomayev adına parka gələrək onun abidəsi önünə tər çiçəklər düzüblər.

Səfir Seymur Mərdəliyev bildirib ki, Ukraynada Müslüm Maqomayevin sənətinin çoxsaylı pərəstişkarları var və xatirəsinə hər zaman ehtiram göstərilir. O, dünya xalqlarının qəlbində elə sevgi abidəsi ucaldıb ki, bu gün də sevilir, anılır. "Azərbaycan musiqi mədəniyyəti tarixində onun öz yeri var. Zaman keçir, illər dəyişir, amma onun sənətinə və şəxsiyyətinə tükənməz sevgi nəinki azalmır, əksinə, daha da artır. Bu gün Müslüm Maqomayev təkcə azərbaycanlı kimi yox, həm də bəşəri sənətkar kimi qəbul edilir, tanınır.

Qeyd edək ki, Müslüm Maqomayevin Ukraynanın paytaxtında abidəsi Azərbaycan dövlətinin dəstəyi ilə ucaldılıb. 2018-ci il iyulun 18-də Kiyevin Şevçenko rayonundakı park-meydanda açılışı olan abidənin müəllifi mərhum heykəltaraş soydaşımız, Ukraynanın Xalq rəssamı Seyfəddin Qurbanovdur. 2020-ci ildə parka Müslüm Maqomayevin adı verilib.

## "Mərmər soyuğu" Almaniyada beynəlxalq festivalda



Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Azərbaycanfilm" kinostudiyası, Bakı Media Mərkəzi, İctimai Televiziya və "Arizona Films" (Fransa) şirkətinin birgə istehsal etdiyi "Mərmər soyuğu" bədii filmi noyabrın 7-dən 12-dək Almaniyada – 33-cü Cottbus Beynəlxalq Film Festivalında iştirak edəcək.

Kinostudiyadan bildirilib ki, "Mərmər soyuğu" ilə birlikdə festivalın əsas müsabiqə bölməsində 12 ekran əsəri yer alıb.

Filmin baş prodüseri Arzu Əliyeva, rejissoru Asif Rüstəmov, ssenari müəllifləri Asif Rüstəmov və Roelof Jan Minneboo, quruluşçu operatorları Oqtay Namazov və Adil Abbasov, quruluşçu rəssamı isə Rafiq Nəsirovdur. Prodüserlər Fariz Əhmədov, Orman Əliyev və Guillaume de Seille, kreativ prodüser İradə Bağırzadədir.

Əsas rollarda Xalq artisti Qurban İsmayılov, aktyorlar Elşən Əsgərov və Natavan Abbaslı çəkiliblər. Uğursuz rəssam və sevgilisinin qarışıq münasibətlərindən bəhs edir. Həbsdən evə qayıdan ata oğlunun həyatına müdaxilə etməyə çalışır.

Filmin beynəlxalq festivallarda ilk nümayişi 2022-ci ilin noyabrında Tallində (PÖFF – "Qara Gecələr" Film Festivalı) olub.

## "Şuşanın dağları başı dumanlı" filmi Varşavada göstərilib

Polşa paytaxtında Varşava Universiteti Şərqşünaslıq fakültəsinin təşkilatçılığı, Azərbaycan, Türkiyə və Qazaxıstanın Polşadakı səfirlikləri, habelə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun dəstəyi ilə "Polşa və Türk dünyası" mövzusunda beynəlxalq konfrans keçirilib.




Konfransın açılışında Varşava Universiteti Şərqşünaslıq fakültəsinin dekanı Pyoter Taraça, Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova, Qazaxıstan səfiri Alim Kirabayev, Türkiyə müvəqqəti işlər vəkili Çağdaş Bilgin, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndəsi Leyla Həsənova çıxış ediblər.

Konfrans işini sessiyalarda davam etdirib.

Azərbaycana aid sessiyada AMEA-nın Şərqşünaslıq İnstitutunun əməkdaşları tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi, dosent Əfşan Şəfiyeva, tarix üzrə fəlsəfə doktoru Namiq Məmmədov və başqalarının məruzələri dinlənilib. Qafqaz Tarixi Mərkəzinin direktoru, politoloq Rizvan Hüseynov Gəncəsar alban monastırının epiqrafik yazıları mövzusunda məruzə edib.

Konfransın sonunda "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyinin QHT-lərə Dövlət Dəstəyi Agentliyinin və İctimai Televiziyanın yardımı ilə ərsəyə gətirdiyi "Şuşanın dağları başı dumanlı" bədii-sənədli filmi nümayiş olunub.

İctimai birliyin sədri, Azərbaycan Dillər Universitetinin dosenti Şəhla Nağıyeva ingilis dilində təqdim olunan film haqqında məlumat verib. Ssenari müəllifi Müsəllim Həsənov konfrans iştirakçılarının filmlə bağlı suallarını cavablandırıb.

## Dünya uçurumun astanasındadır...

### BMT-nin baş katibindən bədbin mesaj

Dünya uçurumun astanasındadır və daha çox insan zərər çəkmədən tədbirlər görülməlidir.

BMT-nin baş katibi Antonio Quterreş bunu 24 oktyabr – Birləşmiş Millətlər Təşkilatı Günü münasibətilə sosial platformasında yazıb.

"BMT Nizamnaməsinin qüvvəyə minməsinin 78-ci ildönümündə mən hər kəsi zorakılıq nəticəsində daha çox insanın həyatına son qoymadan və bu, daha da yayılmadan uçurumdan geri çəkilməyə çağırıram", – deyə baş katib bildirib.

Qeyd edək ki, baş katib Antonio Quterreş bədbin mesajı hazırda bütün dünyanın diqqət kəsildiyi Fələstin-İsrail münaqişəsi kontekstində verib. Münaqişənin yenidən alovlanması, əslində, həm də beynəlxalq birliyin onilliklərdir bu məsələdə nümayiş etdirdiyi bacarıqsızlığın nəticəsidir. BMT-nin 1947-ci ildə problemin "iki dövlət" formulu əsasında (yəhudi-İsrail və ərəb-Fələstin dövlətləri) çözümü ilə bağlı qəbul etdiyi qətnamə hələ də reallaşmayıb.

Bu arada BMT baş katibinin oktyabrın 7-də başlanan gərginliyin dərinləşməsi və İsrail ordusunun HƏMAS təşkilatının hücumuna cavab əməliyyatında çoxlu sayda dinc insanın, o cümlədən uşaqların öldürülməsi ilə bağlı açıqlamaları İsrail tərəfində böyük etiraz doğurub. İsrail Antonio Quterreşin mövqeyinə görə BMT nümayəndələrinə viza verməkdən imtina edəcəyini bildirib.

Oktyabrın 26-na olan məlumatlara əsasən, İsrailin Qəzza zolağına endirdiyi zərbələrdən ölənlərin sayı 6,5 mini keçib. Həlak onlardan 2 mindən çoxu uşaq, daha 2 mini qadın və qocalardır. Qəzza zolağında 1,5 milyon sakin (ümumi əhalinin təxminən 70%-i) evlərini tərk etmək məcburiyyətində qalıb.

HƏMAS-ın İsrailə hücumu nəticəsində ölənlərin sayının da 1500-dən çox olduğu bildirilir.




## Olaylar, faktlar (27–30 oktyabr)

### 105 il əvvəl...

**30 oktyabr 1918-ci ildə** I Dünya müharibəsində məğlub duruma düşən Osmanlı dövləti müharibənin qalibi sayılan Antanta ölkələri (Britaniya, Fransa, ABŞ) ilə Mudros sülh sazişi imzalayaraq qoşunlarını Azərbaycandan və bütün Cənubi Qafqazdan çıxarmaq barədə öhdəlik götürüb. Bakını tərk edən türk qoşunlarının yerinə şəhərə ingilis qüvvələri daxil oldu.

### 100 il əvvəl...

**29 oktyabr 1923-cü ildə** Türkiyə Cümhuriyyətinin yarandığı elan edilib. Türkiyə Böyük Millət Məclisində keçirilən mərasimdə Mustafa Kamal Atatürk ölkənin ilk prezidenti seçilib.

### 96 il əvvəl...



**28 oktyabr 1927-ci ildə** Türkiyə Cümhuriyyətində ilk dəfə əhali siyahıya alınıb. 63 vilayət, 328 qəza və 40 minə yaxın kəndi əhatə edən siyahıyaalmanın nəticələrinə görə, əhali sayı 13 milyon 650 min nəfər müəyyən edilmişdi.

### 85 il əvvəl...

**28 oktyabr 1938-ci ildə** Azərbaycan SSR Xalq Maarif Komissarlığının əmri ilə Dövlət Musiqili Komediya Teatrı (Azərbaycan və rus truppası) yaradılıb. 1948-ci ildə bir sıra teatrların özünümaliyyələşdirməyə keçməsi ilə bağlı fəaliyyətini dayandırıb. 1956-cı ildə fəaliyyətini bərpa edib. 2013-cü ildə Azərbaycan Dövlət Musiqili Teatrı adlandırılıb, 2019-cu ildə teatra "Akademik" statusu verilib.

### 80 il əvvəl...

**28 oktyabr 1943-cü ildə** SSRİ Ali Sovetinin Rəyasət Heyəti Böyük Vətən müharibəsində "faşistlərə yardım etmiş xalqlar barəsində" qərar qəbul edib. Qərarda Şimali Qafqaz, Volqaboyu və Krımın əksər xalqları "qara siyahıya" salınıb. 1944-cü ilin iyununadək 400 min çeçen, 140 min kalmık, 200 min Krım tatarı, 100 min inquş, 80 min qaraçay, 40 min balkar Mərkəzi Asiya və Sibirə deportasiya edilib. Bu xalqların reabilitasiyası barədə qərar Stalinin ölümündən (1953) sonra verildi.

### 30 il əvvəl...

**27-29 oktyabr 1993-cü ildə** Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində Füzuli rayonunun Horadiz qəsəbəsi və Arazboyu kəndləri, Cəbrayıl rayonunun Arazboyu kəndləri və Zəngilan rayonu işğal olunub. 27 oktyabrda Horadizi ələ keçirən ermənilər Bakı-Mincivan avtomobil və dəmir yollarını kəsiblər. Həmin gün Azərbaycan Prezidenti Heydər Əliyevin dəvəti ilə Bakıya səfərə gələn İran Prezidenti Əli Əkbər Haşimi-Rəfsəncani mühasirədən çıxa bilməyən əhalinin Araz çayından İrana keçməsinə razılıq verib. Zəngilan Azərbaycanın Ermənistan tərəfindən işğal edilən axırıncı rayonu oldu. 27 il sürən işğala 2020-ci ilin Vətən müharibəsində son qoyuldu.

### 28 il əvvəl...



**28 oktyabr 1995-ci ildə** Bakı metrosunda dəhşətli qəza baş verib. "Nərimanov" və "Ulduz" stansiyaları arasında sərnişin qatarında baş vermiş yanğın nəticəsində, rəsmi məlumatlara görə, 286 nəfər həlak olmuşdu. 269 nəfər xəsarət almış, 400 nəfər xilas edilmişdi. Bu, dünya tarixində ən böyük metro qəzası idi.

### 24 il əvvəl...

**27 oktyabr 1999-cu ildə** Ermənistanda Parlamentin iclası zamanı baş nazir Vazgen Sarkisyan, spiker Karen Dəmirçyan, hökumət üzvü və parlamentin deputatı olan daha 6 nəfər qətlə yetirilib. Nairi Unanyanın başçılıq etdiyi silahlı dəstənin törətdiyi terrorun gerçək sifarişçiləri indiyədək naməlum qalır.

### 6 il əvvəl...

**30 oktyabr 2017-ci ildə** Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin təntənəli açılışı olub. Bakı Beynəlxalq Dəniz Ticarət Limanında (Ələt qəsəbəsi) keçirilən mərasimdə Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan, Gürcüstan, Qazaxıstan və Özbəkistanın baş nazirləri iştirak etmişdilər. 850 kilometrlik yolun 504 kilometri Azərbaycan ərazisindən keçir.

**Hazırladı: V.Orxan**

## Tbilisidə azərbaycanlı gənc rəssamın "Cümhuriyyət" sərgisi açılıb

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyət Mərkəzinin qalereyasında azərbaycanlı gənc rəssam Şənay Sadiqin Türkiyə Cümhuriyyətinin 100 illiyinə həsr etdiyi sərgisi açılıb.




"Cümhuriyyət" adlı sərginin açılışında Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay, Azərbaycan səfirliyinin əməkdaşları, Azərbaycanlı İş Adamları Birliyinin (AZEBİ) sədri Nəriman Qurbanov, Türkiyənin Yunus Əmrə İnstitutunun nümayəndəsi, mədəniyyət və ictimaiyyət təmsilçiləri iştirak ediblər.



Mərasimdə səfir Ali Kaan Orbay, muzeyin elmi işçisi Leyla Əliyeva Azərbaycan-Türkiyə qardaşlığından danışıb, gənc rəssama uğurlar arzulayıblar.

Bildirilib ki, sərgidə 20-dən çox əsər nümayiş etdirilir. Şənay Sadiq qeyd edib ki, bu rəsmlərdə təkcə özünün deyil, bütün azərbaycanlıların qardaş Türkiyəyə olan sevgisini ifadə etmək istəyib.

## "Ana duası" Münxendə təqdim olunub

Azərbaycan və İsrail kinematoqrafçılarının birgə istehsalı olan "Ana duası" filmi oktyabrın 24-də Almaniyanın Münxen şəhərindəki Yəhudi Mədəniyyət Mərkəzində təqdim olunub.




Filmin rejissoru Rüfət Əsədovdur. Ekran əsəri Azərbaycanın Oğuz rayonunda məskunlaşan dağ yəhudilərinin tarixindən bəhs edir. Filmin qəhrəmanı Oğuzda doğulan, hazırda İsraildə yaşayan, Azərbaycan diasporunun fəallarından ravvin Şmuel Simantovdur.

## Mexikodakı məktəbdə Azərbaycan sərgisi

Azərbaycanın Meksikadakı Səfirliyi paytaxt Mexikoda yerləşən "British American School"da BMT Günü (24 oktyabr) münasibətilə keçirilən sərgidə iştirak edib.



Səfirlikdən bildirilib ki, sərgidə Azərbaycanın mədəniyyəti, milli geyimləri, dulusçuluq, misgərlik, xalçaçılıq kimi əl sənəti nümunələri, müxtəlif suvenirlər, kiçik xalçalar, eləcə də ölkəmizə aid müxtəlif təbliğat materialları sərgilənib.

Azərbaycan stendini ziyarət edən müxtəlif yaş qruplarından olan məktəblilərə, məktəbin müəllim heyətinə ölkəmizin tarixi və mədəniyyəti barədə məlumat verilib, həmçinin milli mətbəximizin ləziz nümunələri təqdim olunub.

Səfirliyin guşəsi məktəblilərin marağına səbəb olub.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2831
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641